

# Çoxarvadlılıq — sünnədir?!



# GİRİŞ

Allaha həmd olsun. Biz Ona həmd edirik, Ondan kömək və bağışlanma diləyirik. Nəfsimizin şərindən və pis əməllərimizdən, Allahdan qorunma diləyirik. Allah kimi doğru yola yönəltsə, onu heç kəs azdıra bilməz, kimi də tərk edərsə, onu heç kəs düz yola yönəldə bilməz. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq, haqq məbud yoxdur və Onun şəriki yoxdur. Və şəhadət edirəm ki, Muhamməd Allahın qulu və elçisidir.

**“Ey iman gətirənlər! Allahdan, Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!”** (Ali İmran surəsi, 102-ci ayə)

**“Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın (törədib yer üzünə) yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir”** (Nisa surəsi, 1-ci ayə).

“**Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar”.** (Əhzab surəsi, 70-71-ci ayələr)

Həqiqətən, ən gözəl söz Allahın kitabıdır, ən yaxşı yol isə Muhammədin ﷺ yoludur. Ən pis əməllər - bidətdir və hər bidət - zəlalətdir, hər zəlalət isə Cəhənnəm odundadır.

Daha sonra:

Bu vəsaiti toplamaqda, məni düzgün yönəltdiyi üçün, Uca Allaha şükür edirəm.

Və təbii ki, bu vəsaitin içində, Allahın əmr və qadağalarından olan hər bir şeyi, yerinə yetirməkdə Allahdan kömək istəyirəm.

Və mən, Ondan istəyirəm ki, məni layiqli oğul, ər və ata etsin.

Allah, bu işi yoxlayan və bəzi məsləhətləri ilə kömək edən, dostlarıma və tələbə qardaşlarıma mükafat versin.

Bu əsərin tərtib edilməsinə səbəb, bir çox müsəlmanların beynində, çoxarvadlılıq məsələsinin yad və həyata keçirilməsi mümkün olmayan bir şeyə çevrilməsidir. Baxmayaraq ki, bir çox insan, bu məsələnin İslamda icazəli olduğunu qəbul edir, lakin bu məsələyə çox mənfi münasibət bəsləyirlər. Digər tərəfdən, bu Sünnəni həyata keçirməyə çalışan, müsəlmanların bəziləri, öz arvadlarına münasibətdə o qədər səhv və pis rəftar edirlər ki, bununla da bu məsələdəki diqqətsizlikləri və məsuliyyətsizlikləri ilə, bu müsəlman qadınlarda ikrah yaradırlar. Aşağıda qeyd olunanların hamısını yazmaq üçün, Şeyx Vəlid bin Saif Nəsrinin “Hal taaddadu zovcat sunna” (Çoxarvadlılıq sünnədirmi) əsəri əsas olmuşdur. Şeyx, sahib olduğu biliklərə əməl edən və onları ötürən, öz vaxtının çoxunu buna həsr edənlərdəndir.

Əsas mövzuya keçməzdən əvvəl, aşağıdakılarla tanış olmalıyıq:

Birincisi, İslamda qadının mövqeyini qısaca vurğulamaq, həmçinin onun digər xalqlarda və dinlərdə tutduğu səviyyə ilə müqayisə etmək.

İkincisi, qeyd edək ki, İslam çoxarvadlılığı tətbiq edən, ilk din deyil, lakin bu məsələ ilə bağlı, aydın qaydaları və sərhədləri müəyyən edən, məhz bu İslam dinidir.

Üçüncüsü, çoxarvadlılıq məsələsi, dini bir məsələdir və onu inkar etmək, bütün dini inkar etməyə bərabərdir və ona nifrətin təzahürü isə, aləmlərin Rəbbinə küfrün təzahürüdür və bu, bildiyimiz kimi, insanın İslamdan çıxmasına səbəbdir. Biz, xoşumuza gəlib-gəlməməsinə baxmayaraq, Allahın hökmlərinə tabe olmalıyıq.

Beləliklə, ilk növbədə:

İslam, qadına böyük hörmətlə yanaşır. Və heç bir cəmiyyət və heç bir din, İslamın, qadınlara bəxş etdiyi bu qədər hörmətli münasibəti və ehtiramı etmir. Buna əmin olmaq üçün, bəşəriyyətin tarixinə nəzər salaq.

Homer, Ezop, Sokrat və Qədim Yunanıstanın digər məşhur adamlarının yazdıqları budur: “Qadından daha zərərli bir şey yoxdur”, “Bir arvad əvəzinə dörd işləyən öküz”, “Qadına olan sevgi zəhərdir”, “Od, qadın və dəniz – bunlar üç fəlakətdir”.

Onların dövründə qadın, ərinin evində hüquqsuz bir qul idi, ərin icazəsi olmadan, şəxsi əmlakını belə işlədə bilməzdi. Qədim Romada "o, ərə gedirdi və bütün əmlakı ərinin mülkü olurdu". Arvad, əri tərəfindən satın alınırdı və ehtiyaclarını ödəyən bir qul kimi, onun mülkü olurdu.

Qadın heç bir mülki və ya dövlət vəzifəsi tuta bilməz, şahid, zamin, qəyyum və ya himayəçi ola bilməz, uşaqları övladlığa götürə bilməz, vəsiyyətnamə və ya müqavilə tərtib edə bilməzdi.

Qədim Çində, ər arvadını qul kimi sata bilərdi və əgər qadın dul qalmışsa, o zaman ərinin ailəsi onu miras almaq hüququna malik idi, yəni o, mirasın bir hissəsi sayılırdı və həmçinin ərinin onu diri-diri basdırmağa haqqı var idi.

Qədim Hindistanda isə, qadın haqqında dedikləri budur: "Qadından daha pis bir şey yoxdur, nə ölüm, nə alov, nə zəhər, nə yırtıcı, nə də od."

Biz onlardan öyrəndik ki, qadın ərinin ölümündən sonra yaşamalı deyil, mərhum əri ilə birlikdə diri-diri yandırılmalıdır, əks halda ömür boyu yas içində qalmalıdır.

Çox vaxt, ərinin ölümündən sonra ona insan kimi münasibət göstərilmir, toxunduğu hər şeyi murdar hesab edirdilər və onların adət-ənənələrinə görə o qadın, oddan daha böyük cəzaya layiq görülürdü!

Yəhudilərdə qadın, Adəmi haqq yoldan azdırandır. Heyz vaxtı gələndə isə, Yəhudilərə o qadınla nə yemək yemək, nə də ki, oturmaq olmaz.

Xristianlığın əvvəllərində, qadın “cəhənnəm qapısı”, “dünyadakı bütün pisliklərin anası” kimi təmsil olunurdu, o, Adəmin və buna uyğun olaraq da bütün bəşəriyyətin günaha batmasında ittiham olunurdu.

Onlar belə nəticəyə gəldilər: “Qadın murdardır, ondan ehtiyat etmək lazımdır” və subaylığa, rahibliyə çağırmağa başladılar və subay qalmağa and

içənin, Allah yanında evli olandan daha xeyirli olduğunu bəyan etdilər. Və bəyan etdilər ki, qadın, günahların əsası olduğu kimi, cinayətin də mənbəyidir.

23 oktyabr 585-ci ildə, Burqundiya kralı Quntram tərəfindən çağırılan, Lion yepiskopu, Priskinin sədrliyi ilə, Makon kilsəsi şurası (Makon şəh., Fransa), qadının ruhunun olub-olmaması problemini, rəsmi olaraq nəzərdən keçirdi. İştirak edən din xadimlərinin, demək olar ki, yarısı bu suala mənfi cavab verdi. Sonda, onlar qərara gəldilər ki, “qadın aşağı səviyyəli bir varlıq olsa da, yenə də onun ruha bənzər bir şeyi var”.

VIII Henrixin dövründə, İngiltərə parlamenti, qadının murdar olduğunu hesab edərək, qadına "Əhdi-cədid" (“İncil”) kitabını oxumağı qadağan edən, bir qərar qəbul etdi.

Təbii ki, bu xalqlarda, qadınların bu halı, həmişə Allahın elçilərinin gətirdikləri ilə uyğun gəlmir. Belə təhrif, Müqəddəs Yazıların, sonrakı nəsillər tərəfindən dəyişdirilməsi və redaktəsi nəticəsində baş verirdi. Küfr ölkələrində, qadınların indiki durumu haqqında, çox danışmaq olar, lakin ona qarşı ən iyrənc formada özünü göstərən ədəbsizlik, nifrət, laqeyd münasibət, artıq hər kəsə məlumdur. Və biz hamımız, bu ölkələrdə fahişəliyin, nikahdan kənar münasibətlərin, homoseksuallığın, lezbiyanlığın geniş yayılması, çoxlu sayda boşanmalar və atılmış uşaqlar haqqında bilirik.

Hazırda Amerikada, eləcə də özlərini “inkişaf etmiş” hesab edən bəzi başqa ölkələrdə, qız uşağı 18 yaşına çatdıqda ata evindən çıxarmaq praktikası var ki, o çıxıb getsin və özü-özünü dolandırsın. Əgər getmək istəmirsə, yemək və paltar yumaq pulunu ödəməkdən əlavə, ailəsi ilə qalmaq üçün kirayə pulu ödəməlidir.

Şübhə yoxdur ki, İslam, qadına heç bir dində və ya cəmiyyətdə olmayan hüquqlar vermişdir. İslam qadına — ana, zövcə, bacı, qız haqqını verdi. Və heç bir şübhə yoxdur ki, İslamda bu hüquqlar mükəmməl oldular. Çoxarvadlılıq isə, İslamın təsbit etdiyi qaydada, kişi üçün olan faydadan daha çox qadına mərhəmətdir.

İkincisi:

Başa düşmək lazımdır ki, çoxarvadlılıq — İslamın fərqli xüsusiyyəti deyil. Bu qədim zamanlardan məlumdur və bu, bir çox əvvəlki şəriətlər üçün norma idi. Biz bu haqda İbrahimin, Yəqubun, Davudun, Süleymanın və digər peyğəmbər və elçilərin (onlara salam olsun) hekayətlərindən öyrənirik.

İslam həm qadınların, həm kişilərin, həm də bütün cəmiyyətin, ümumi mənafeyinə töhfə verən, aydın qaydalar və sərhədlərlə gəlmişdir.

Üçüncüsü:

"İslam" sözünün mənası "təslim olmaq", "tabe olmaq", "yerinə yetirmək" deməkdir. İslamı qəbul edən, onun mənasını dərk edən kəs, imanın tələb etdiyi hər şeyə təslim olmalı, ona əməl etməli və yerinə yetirməlidir.

Uca Allah buyurur: **"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə, səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə, özlərində bir sıxıntı duymadan, tam təslim olmayınca iman gətirmiş olmazlar".** (Nisa surəsi 65-ci ayə)

Əbu əl-İzz Muhəmməd ibn Əli əl-Hənəfi demişdir: "İbadətimizi, itaətimizi, zillətimizi və təvəkkülümüzü, yalnız Allah-Təalaya həsr etdiyimiz kimi, peyğəmbərə (sallalahu aleyhi va səlləm) itaət etmək və onun bütün əmrlərini yerinə yetirmək məcburiyyətindəyik, biz ondan gələn xəbərləri, bəzən bizim ağlımıza gələn və ya beyni kirlə örtülmüş bəzi insanların fikirləri tərəfindən yaradılan şübhə və etimadsızlıq etmədən, qəbul edib, təsdiqləməliyik.

"Sünnənin keşikçisi" ləqəbli görkəmli İmam Əbu əl-Qasım əl-Əsbəhani əş-Şafii buyurur:

"Biz, öz əsaslandırmamızla, Peyğəmbərin ﷺ sünnəsini inkar etmirik, çünki din, bəzən bir şeyi başa düşə bilməməyimizə baxmayaraq, dəqiq yerinə yetirmək (ardıcıl olmaq), həm də təslim olmaqdır. Əsl ağıl - sünnənin qəbul edilməsinə səbəb olan şeydir, lakin onu rədd etməyə səbəb olan - heç də ağıl deyil, cəhalətdir (axmaqlıqdır)" ("əl-Huca").

İbn Ömərdən rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: *"Qadınlarınız sizdən icazə istədikləri zaman, onlara məscidə getməyi qadağan etməyin".* Onda, İbn Ömərin oğlu Bilal dedi: "Allaha and olsun ki, biz onlara bunu qadağan edəcəyik". Bu zaman atası (İbn Ömər) ona tərəf dönüb dedi: "Mən

sənə peyğəmbərin ﷺ sözlərini deyirəm, sən isə: “Biz onlara qadağan edəcəyik?!” və onu elə danladı ki, indiyədək heç kim ondan belə kobud söz eşitməmişdir. (Muslim)

Bir gün, Əbu Müaviyə, Adəmlə Musanın bir-biri ilə necə danışdığına dair, Əbu Hureyrənin rəvayət etdiyi bir hədis nəql etdi. Bu zaman, İsa ibn Cəfər adlı bir nəfər dedi: “Bu necə mümkündür? Axı Adəmlə Musa arasında o qədər zaman fərqi var!” Orada olan Harun Rəşid, bu sözlərlə onun üzərinə getdi: “O, Peyğəmbərdən ﷺ bir hədis rəvayət edir, sən isə: “Bu necə ola bilər!?” deyərək, onu rədd edirsən!?”

Əbu Usman əs-Səbuni, görkəmli alimdir, ondan çoxlu sayda alim elm alıb, dövrünün ən məşhur hafizi, İmam əl-Beyhəki əş-Şafii onun haqqında belə demişdir: “Həqiqətən o, müsəlmanların həqiqi imamı və əsl əl-İslam şeyxidir, onun dövrünün adamları onun dindəki mövqeyinin böyüklüyünü, üstünlüyünü və əqidəsinin doğruluğunu, elminin böyüklüyünü və Sələf yoluna bağlılığını təvazökarlıqla qəbul edirlər”. (“Təbəqət əş-Şafiyyə əl-Kubra”) Tacuddin əs-Subki əş-Şafii onun haqqında belə demişdir: “O, dindarlığı, aliliyi və elmi haqqında heç bir qruplaşmanın ixtilaf etmədiyi şəxslərdən idi”. (“Təbəqət əş-Şafiyyə əl-Kubra”) Şeyxül-islam İbn Teymiyyə, onun haqqında danışarkən, həmişə onu Şeyxül-islam adlandırırdı. Məşhur imam, tədqiqatçı, İslam ümmətinin böyük alimi İbn Qeyyim əl-Cövziyyə, onun haqqında demişdir: “O, dövrünün əhli-hədis, fiqh və tasavvuf imamıdır”. (“İctima əl-Cuyuş”)

Belə ki, bu görkəmli alim, Harun Rəşidin hərəkətlərini şərh edərək, demişdir: “Hər bir insan, peyğəmbərin ﷺ risalətlərini bu cür ucaltmalıdır”. Onları qəbul edib, onlara tabe olub və təsdiqləməlidir. Bu əməldə, Harun Rəşidin (Allah ona rəhmət etsin) ardınca getməyən hər kəsi, məzəmmət etməli. Səhih xəbərləri “Bu necə mümkündür?!” sözləri ilə rədd edən hər kəsi, məzəmmət etməli. Axı Allah, Rəsulundan ﷺ gələn hər şeyi qəbul etmək vacibdir”.

# PEYĞƏMBƏRƏ ﷺ QARŞI ZİDD OLAN ADAMIN BƏDBƏXTLİYİ

Ey peyğəmbərin əmrlərinə zidd olanlar! Ehtiyatlı olun! Allahdan sizi bundan xilas etməsini diləyin!

Həm bu həyatda, həm də axirətdə, başınıza gələ biləcək bədbəxtliklərdən çəkinin!

Allah Subhanahu va Təalə buyurur: **“Onlar (doğru yoldan) sapdıqda, Allah da onların qəlbini sapdırdı”.** (Saff surəsi 5-ci ayə)

Və Əbu Bəkr Siddiq demişdir ki: “Allahın, mənim qəlbimi sapdıracağından qorxaraq, Rəsulullahın ﷺ üzərində olduğu heç bir əməli tərk etmirəm”. (Buxari və Muslim)

Fəzl ibn Ziyaddan rəvayət olunur ki, o, Əbu Abdullahın (Əhməd ibn Hənbəlin) belə dediyini eşitdi: "Mən Qurana baxdım və orada, Allah Rəsuluna ﷺ tabe olmaqdan bəhs edən 33 ayə tapdım", daha sonra bu sözləri deməyə başladı: **“Qoy onun əmrinə qarşı çıxanlar, başlarına bir bəla gəlməsindən, yaxud özlərinə sarsıdıcı bir əzab üz verməsindən qorxsunlar”.** (Nur surəsi 63-cü ayə)

Və o, çox təkrar edirdi ki: “Bu hansı bəladır? Bu şirkdir! Ola bilsin ki, insanın qəlbinə, azğınlıqdan bir şey daxil olsun, qəlbi azsın və o insan bu cür də ölsün”.

Sonra bu ayəni oxuyurdu: **“Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə, səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan, tam təslim olmayınca iman gətirmiş olmazlar”.** (Nisa surəsi 65-ci ayə)

O həmçinin dedi ki: “Peyğəmbərin ﷺ , hədisini inkar edən şəxs, çox təhlükəli vəziyyətdədir”. ("əl-İbanə")

Həmçinin, Sələmə ibn əl-Əkvadan gələn səhih hədisdə bildirilir ki, bir nəfər peyğəmbərin ﷺ yanında, sol əli ilə yemək yeyirdi. Peyğəmbər ﷺ ona: “*Sağ əlin ilə ye*” dedi, cavabında bu adam təkəbbürlə dedi: “*Mən bacarmıram*”. Peyğəmbər ﷺ ona dedi: “*Sən heç bacarmayasan*”.

Peyğəmbərin ﷺ əmrini yerinə yetirməyə, ona yalnız təkəbbürlüyü mane oldu. Sələmə ibn əl-Əkva dedi ki, bundan sonra o adam ölənə qədər (sağ) əlini qaldıra bilmədi. (Muslim)

Həmçinin, Əbu Hureyrə rəvayət edir ki, o, peyğəmbər ﷺ üçün, bir quzu (və ya keçi) kəsdi və yemək hazırladı və Peyğəmbər ﷺ ondan, heyvanın çiyin hissəsini istədi. "Mən ona, heyvanın çiyin hissəsini çıxarandan sonra o, yenidən həmin yerdən istədi. Mən başqa birini də çıxarıb ona verdim. Bundan sonra o, üçüncü dəfə başqa bir çiyin hissə istədi və mən təəccübləndim ki, heyvanın (quzunun) yalnız iki çiyin hissəsi olur axı. Bu zaman, peyğəmbər ﷺ dedi: "Əgər mənə qulaq assaydın, üçüncüsünü də tapardın". (İbn Hibban, əl-Kubrada ən-Nəsai)

Çoxarvadlılıq məsələsi, o məsələlərdəndir ki, bir çoxlarının bu vəziyyətə, Allahın hökmlərindən biri kimi, bizim üçün şəriət hökmünü təyin edənin, hökmü kimi itaət etməyə, tabe olmağa və qəbul etməyə ehtiyacı var. Və başa düşmək çox vacibdir ki, Allahın qoyduğu hökmləri rədd etmək, düzgün əqidə və tövhid ilə bir araya sığmaz və hətta daha çox, belə bir insanın, bütün yaxşı əməllərinin puç olmasına səbəb ola bilər, o isə heç fərqinə belə varmaz.

# İSLAMDA ÇOXARVADLILIĞIN QANUNİLİYİ

Quran, Sünnə və alimlərin yekdil rəyindən dəlillər.

Uca Allah buyurur: “**Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn (halal) qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda (onlardan) biri ilə və yaxud sahib olduğunuz cariyələrlə (kifayətlənin). Bu, haqsızlıq etməməyə daha yaxındır”.** (Nisa surəsi 3-cü ayə)

Rəvayət edilir ki, Urva bin əz-Zübeyr (Allah ona rəhmət etsin), Aişədən (Allah ondan razı olsun), Uca Allahın bu kəlamı ilə bağlı sual soruşduqda: **“Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa...”**, o belə dedi: “Ey bacımın oğlu! Söhbət, elə bir vəziyyətdən gedir ki, yetim qız öz qəyyumunun himayəsindədir və onun mülkünün şərikidir və onun malı və gözəlliyi ilə cəzb edilən qəyyum, onunla evlənmək istəyir, lakin mehr verməkdə ədalətə riayət etmək və başqası o qıza (mehri) verəcəyi qədər, ona vermək istəmir. Elə buna görə də, belə şəxslərə yetimlərlə evlənmək qadağan edilmişdi, yəni əgər qəyyumlar, yetim qızlara qarşı insaflı olub, onlara öz adət-ənələrinə uyğun olan, ən yüksək mehri ödəməsələr, evlənə bilməzlər, əks halda Allah onlara bəyəndikləri başqa qadınlarla evlənməyi əmr etdi”.

Urva demişdir ki:

Bundan başqa, Aişə dedi:

“Bu ayə nazil olduqdan sonra, insanlar qadınlarla bağlı bəzi məsələlərdə qərar vermək üçün, Allahın Elçisinə ﷺ müraciət etməyə başladılar və bu zaman, Allah belə bir ayə nazil etdi: “Səndən qadınlar barəsində hökm (verməyini) istəyirlər”.

Aişə həmçinin dedi: “Həmin ayənin başqa bir yerində, “onlarla evlənmək istəmədən” kəlməsi də var ki, bununla sizlərdən hər hansı birinin himayəsində olan, yetimlə evlənmək istəməməsi nəzərdə tutulur, əgər o yetərincə zəngin və gözəl deyilsə”.

Aişə (Allah ondan razı olsun) həmçinin demişdir: “Və ədalətdən boyun qaçıran insanlara, gözəlliyi və mal-dövləti ilə onları cəlb edən yetimlərlə evlənmək qadağan edildi, çünki bu yetimlər zəngin və gözəl olmasaydılar, onlarla evlənmək istəməzdilər”.

Uca Yaradanın: **"Bu, haqsızlıq etməməyə daha yaxındır"** kəlamına gəlincə, onu Quranın böyük təfsirçilərindən biri, böyük alim Qurtubi də, məhz belə şərh etmişdir. Söhbət, məhz "ədalətsizlik" sözündən gedir. Bu mənanı, həmçinin Aişə, İbn Abbas, əl-Həsən, Mücahid, İkrimə, Ata, İbrahim, Qatadə və sairləri nəql edirlər və alimlərin əksəriyyətinin rəyi belədir.

Çoxarvadlılığın icazəli olmasına, Uca Allahın həmçinin bu sözü də işarə edir: **"Siz nə qədər istəsəniz də, arvadlar arasında ədalətlə davrana bilməzsiniz. (Birinə) tamamilə meyl edib, digərini asılı vəziyyətdə qoymayın. Əgər (özünüzü) doğruldub, (Allahdan) qorxsanız, (bilin ki,) Allah Bağışlayandır, Rəhmlidir"** (Nisa surəsi 129-cu ayə).

Həmçinin, Uca Allahın bu sözləri: **"Sizə iki bacını birlikdə almaq, haram edildi"** (Nisa surəsi 23-cü ayə), amma əgər bu qadınlar, doğma bacı deyillərsə, ikisinidə almaqda heç bir qadağa yoxdur. Peyğəmbər ﷺ, həmçinin qız ilə və onun xalası (bibisi) ilə eyni vaxtda evlənməyi də qadağan etmişdir.

Sünnədən dəlillər: Peyğəmbər ﷺ buyurur: *"Mən, qadınlarla evlənirəm və kim mənim sünnəmə tabe olmaq istəməzsə, məndən deyildir".* (Buxari, Muslim)

Gilan ibn Üməyyə əs-Səkafi, İslamı qəbul edəndə onun 10 arvadı var idi və Peyğəmbər ﷺ ona dedi: *"Dördünü seç, qalanını isə boşa"* (Malik "əl-Muvatta"-da, Əhməd, Tirmizi, İbn Macə).

Peyğəmbərin ﷺ, həmçinin eyni vaxtda, bir neçə qadınla evlənməyi nümunədir. O vəfat etdikdən sonra, onun doqquz arvadı qaldı və onların adları belədir:

Səuda (Sevda), Aişə, Həfsa, Ummu Sələmə, Zeynəb binti Cəhş, Ummu Həbibə, Cuveyriyyə, Safiyyə və Maymunə (Allah onlardan razı olsun). Onların adları, peyğəmbərin onlarla evləndiyi ardıcıllıqla verilir.

Bu barədə, biz həmçinin səhabələrin sözlərindən də öyrənirik. Bir dəfə, İbn Abbas, Seyid ibn Cubeyrdən soruşdu: "Sən evlənmisənmi?"

"O cavab verdi: "Xeyr", İbn Abbas dedi: "Evlən, həqiqətən bu ümmətin ən yaxşısı - çox arvadı olandır" (Buxari).

Biz, bu haqda, aşağıda bəhs olunacaq, saleh sələflərimizin (Allahu Təalə, onların hamısına rəhmət etsin) əməllərindən də, etibarlı şəkildə bilirik.

Alimlərin (icma) yekdil rəyi: Quran təfsiri sayəsində, geniş məşhurluq qazanmış, hədis mütəxəssisi, İmam Qurtubi belə deyir: “Müsəlmanlar yekdildirlər ki, kimsə yetimlərə qarşı haqsızlıq etməkdən qorxmursa, ona birdən çox, iki, üç və ya dörd arvadla evlənməyə icazə verilir.”

# ÇOXARVADLILIĞIN HÖKMÜ

Bil ki, (Allah mənim və sənin elmini artırsın) çoxarvadlılıq, şəriətin bizi təşviq etdiyi, (sünnə müstəhəb) arzu olunan, bir sünnədir.

Məşhur İslam ilahiyyatçisi, İbn Həcər əl-Əsqəlani, Allah Rəsulunun ﷺ **"Bəyəndiyiniz qadınlarla evlənin"** kəlamının, məşhur şərhində belə deyir: "Bu ayədə, **"evlənmək"** feli əmr formasında dayanır və bu, bir əmr və ya ən azı təşviqə işarə edir.

Qazi İyad demişdir ki: "Alimlər, çoxarvadlılığın caiz olmasında, yekdil fikirdədirlər və insanlar da bununla fəxr etməkdə davamlı olublar və bu əməl, bilinən və təqdirəlayiq bir adətdir.

Şəriətə gəlincə, bu əməl, təyin olunmuş sünnədir. Və hətta səhabələrin ən zahid olanlarında da, çoxlu arvadları var idi!" ("Fəthul-Bari")

Bundan əlavə, bilmək lazımdır ki, bəzən çoxarvadlılıq vacib ola bilər! Axı dindar insan, özünü haram etməkdən, istər bədən üzvləri ilə olsun və ya sadəcə olaraq zinaya yaxınlaşdıran əməl olsun, var gücü ilə özünü qorumalıdır və istər küçədə və ya başqa yerlərdə, ətrafdakı nalayiq şeylərdən ehtiyatlı olmalıdır. Və çox vaxt, bir arvad "sevgi ilə dolu" kişi üçün kifayət deyil, xüsusən də arvad evdən kənarda işləyirsə və üstəlik, əri ilə müxtəlif vaxtlarda işləyirsə. Və nəfsi üçün qorxaraq, bir çox cəmiyyətlərdə ölmüş və ya ölmək üzrə olan, bu sünnəni diriltməyə çalışaraq, həmçinin müsəlmanların nəslini və sayını çoxaltmaq üçün evlənməyə tələsməlidir, təbii ki, bu iş onun üçün asanlaşanda.

# ARVADLARIN HAMISI İLƏ, ƏDALƏTLİ OLMAQ VƏ YALNIZ BİRİNƏ MEYİLLİ OLMAMAQ – ÇOXARVADLILIĞIN ŞƏRTİDİR

Əgər insan, özünü tanıyıb, arvadlarından birinə qarşı haqsızlıq edəcəyi qənaətinə gələrsə, bu halda çoxarvadlılıq ona haram olar. Yaxud, məsələn, bir kişi birinci arvadına zərər vermək məqsədi ilə, başqası ilə evlənmək istəyirsə, o zaman da ona çoxarvadlılıq haramdır. Bu qadağandır, çünkü Allahu Təalə buyurur: **"Sıxışdırmaq məqsədilə, onlara zərər yetirməyin"** (Talaq surəsi 6-cı ayə), həmçinin peyğəmbər ﷺ demişdir: *"Özünüzə və başqalarına zərər vermək olmaz".* (Əhməd, İbn Macə, ət-Təbərani)

İslam alimlərinin, görkəmli nümayəndəsi, 130-dan çox əsərin müəllifi, Fəxrəddin ər-Razi demişdir: "Əgər bir insan, dörd qadın arasında ədalətli ola bilməyəcəyindən qorxarsa, üçü ilə kifayətlənməlidir, əgər öz tərəfindən gələn, haqsızlıqdan qorxarsa, ikisi ilə kifayətlənir və onların arasında ədalətli ola bilməyəcəyindən qorxarsa, biri ilə kifayətlənir".

Allah buyurur: **"Siz nə qədər istəsəniz də, arvadlar arasında ədalətlə davrana bilməzsiniz. (Birinə) tamamilə meyl edib, digərini asılı vəziyyətdə qoymayın. Əgər (özünüzü) doğruldub, (Allahdan) qorxsanız, (bilin ki,) Allah Bağışlayandır, Rəhmlidir"** (Nisa surəsi 129-cu ayə).

Ən məşhur imam-alim, tarixçi və təfsirçilərdən biri olan, İbn Cərir ət-Təbəri belə demişdir: "Ey kişilər, siz qadınlarınızı, ürəyinizdə eyni sevə bilməzsiniz. Bu, sizin gücünüzün və nəzarətinizin xaricində olan şeylərdən biridir. Hətta bunu çox istəsəniz də belə. Və sevmədiyinizi sevməyə çalışmayın. Odur ki, onlardan üz döndərməyin ki, bu əməl sizi, onlara qarşı öhdəliklərinizdən imtina etməkdən, onlar arasında vaxtı bölüşdürməkdən, onlar arasında xərclərinizi bölüşdürməkdən, onlara ləyaqətlə yanaşmaqdan ibarət ola bilən şeylərdə, haqsızlıq etməyə sövq etməsin. Elə edin ki, arvadlardan heç birini, pis, asılı vəziyyətdə qoymayasız. Yəni elə bir vəziyyətdə ki, özünü nə evli qadın, nə də dul kimi hiss edir". ("Təfsir ibn Cərir ət-Təbəri")

İbn Abbas, Allahın: **"Siz nə qədər istəsəniz də, arvadlar arasında ədalətlə davrana bilməzsiniz"** kəlamı haqqında belə demişdir: "Sevgi və cinsi əlaqə ilə bağlıdır."

Əbu Hureyrə (radiyallahu anhu) rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurdu: “*Kimin iki arvadı olsa və onlardan yalnız birinə tərəf yönəlsə, Qiyamət günü, bədəninin bir hissəsindən məhrum olaraq, zühur edər! ”* (Əhməd, Əbu Davud, ən-Nəsai)

Ancaq eyni zamanda, bilmək çox vacibdir ki, bir insanın vəfasız ola biləcəyi və ya sərhədləri aşacağına dair, bir fərziyyə və ya sadəcə narahatlıq, onun evlənməsinə mane olmamalıdır, çünki kişidə öz vəzifələrini layiqincə yerinə yetirmək və ətrafında olan başqalarının hüquqlarına hörmət etmək bacarığı var.

Onun övladlarına olan münasibətini, misal olaraq göstərmək olar. Hətta birini başqalarından çox sevsə belə, bu onun hamısına ədalətli davranmasına mane olmur. Eynən bu cür, onun məsul olduğu hər bir şeydə və işdə də olur. Buna görə də, bu dözülməz hər hansısa böyük bir yük deyil. Yox! Çünki kişi, hisslərini cilovlamağı bilir. Peyğəmbər ﷺ buyurur: *“Xeyir istəyən onu alar, pislikdən çəkinən isə ondan qorunar”.* (“Səhih əl-Cəmi”)

# ÇOXARVADLILIQ, HANSI HALLARDA VACİB OLA BİLƏR

Kişi şəhvətli ola bilər və özünü bir arvadla məhdudlaşdıra bilmir. Bu vəziyyətdə, onun mövqeyi, özü üçün qorxan gənc, subay oğlanın mövqeyi kimi olacaq. Müxtəlif dövrlərdə, müxtəlif vəzifələrdə çalışmış, 20-ci əsrin ən görkəmli İslam alimlərindən biri olan, (O, əvvəlcə şəriət dərslərini verməklə yanaşı hakim olub, sonra Mədinədə universitetin direktoru, 1994-cü ildə isə Səudiyyə Ərəbistanının müftisi və alimlərin rəhbəri olub.) Möhtərəm Şeyx Əbdül-Əziz ibn Bazdan (Allah ona rəhmət etsin) bir nəfər soruşur: "Mən uzun illərdir evliyəm, övladlarım var və ailə həyatımda xoşbəxtəm. Amma mən hiss edirəm ki, mənə ikinci zövcə lazımdır, çünkü mənim ehtiyaclarım həyat yoldaşımın ehtiyaclarından daha yüksəkdir. Bu bir tərəfdən. Digər tərəfdən, indi yanımdakı zövcədə olmayan müəyyən xüsusiyyətlərə malik olan zövcə istəyirəm. Və mən günah işləmək istəmirəm, amma eyni zamanda ikinci qadınla evlənməkdə çətinlik çəkirəm, çünki xüsusiyyətlərində sevmədiyim heç nə olmayan həyat yoldaşım, bu istəyimi tamamilə rədd edir. Mənə nə məsləhət görürsüz? Və arvadımın buna etiraz etməməsi üçün, ona nə məsləhət görərdiniz?

Və mən, onun hüquqlarını tam yerinə yetirəcəyim halda, onun mənim evlənmək istəyimi rədd etmək hüququ varmı? Allaha həmd olsun, bunun üçün, maddi imkanım var. Ümid edirəm ki, ətraflı cavab verərsiz, çünkü bu sual bir çox insanları narahat edir".

Cavab: "Əgər hər şey dediyin kimidirsə, şəriət qanunu sənə ikinci, üçüncü və dördüncü arvadla evlənməyə icazə verib. Yəni, sənin imkanına uyğun olaraq və bədən üzvlərini və gözlərini qorumaq ehtiyacına uyğun olaraq və həmçinin əgər ədalətli ola bilsən. Uca Allahın bu kəlamına uyğun olaraq: **"Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn (halal) qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda (onlardan) biri ilə və yaxud sahib olduğunuz cariyələrlə (kifayətlənin). Bu, haqsızlıq etməməyə daha yaxındır."** Və peyğəmbərin ﷺ bu sözlərinə uyğun olaraq: "*Ey gənclər, sizdən kimin evlənmək imkanı varsa, evlənsin*". (Buxari və Muslim). Həmçinin bunda nəslin çoxalması səbəbi də var. Axı şəriət nəslin çoxalmasına işarə edir və buna təşviq edir. Və əgər kişinin həyat yoldaşı buna mane olmasa, icazə verərsə, daha yaxşı

olar. Və sən isə, ədalət göstərməyə çalışmalı və onların hamısına borclu olduğun hər şeyi yerinə yetirməlisən. Bütün bunlar, yaxşılıq və xeyirxahlıqda bir-birinə kömək etməkdir. Axı Uca Allah buyurur ki: **“Yaxşılıq etməkdə və xeyirxahlıqda bir-birinizə yardım edin”.** Və peyğəmbər ﷺ buyurur: *“Qul, qardaşına kömək etdiyi müddətcə, Allah da quluna kömək edir”* (Muslim). Axı sən, onun Allah yanında qardaşısan (din baxımından), o da sənin Allah yanında bacındır. Və yaxşı olar ki, bir-birinizə yaxşılıq etməkdə kömək edəsiniz. İbn Ömərdən (radiyallahu anhu) rəvayət olunan, səhih bir hədisdə, Peyğəmbər ﷺ buyurur: *“Kim öz qardaşının qayğısına qalmaqla məşğul olarsa, Allah da onun qayğısına qalmaqla məşğul olar”* (Buxari və Muslim). Çoxarvadlılığın icazəli olması üçün, qadının razılığı şərt deyil. Bu, yalnız ondan arzu olunan bir hərəkət olacaq ki, ailə münasibətləri ən yaxşı şəkildə davam etsin. Və mən, Allahdan diləyirəm ki, O, bütün müsəlmanların vəziyyətini yaxşılaşdırsın və hər ikiniz üçün nəyin daha yaxşı olacağını qismət etsin”.

Çoxarvadlılıq həmçinin, müharibələr səbəbindən də vacib ola bilər. Məlum bir qayda var: “O şey ki, o olmadığında, vacib olan şeylər tamamlanmış olmurlar, həmçinin vacib olur”. Hətta kafirlər (qeyri-müsəlmanlar) çoxarvadlılığın faydalarını görərək, buna razı oldular.

İngilis filosofu və sosioloqu Spenser “Sosiologiyanın mənşəyi” kitabında yazır: “Əlbəttə ki, çoxarvadlılıq, müharibədə kişilərini itirən xalq üçün zəruridir, çünki belə bir vəziyyətdə bir kişiyə yalnız bir arvad düşmür”.

# ÇOXARVADLILIQDA OLAN HİKMƏT

## 1 — Nəsil.

Çoxarvadlılıqda mövcud olan hikmətlər arasında, müsəlman cəmiyyətini artırmaq üçün, övlad dünyaya gətirmək də var. Və cəmiyyət nə qədər çox olarsa, digər xalqlar arasında bir o qədər güclü və hörmətli olacaqdır. Axı hamı başa düşür ki, nəslin çoxalmasının səbəbi çoxarvadlılıqdır. Şəriət və ağlımız, bizi buna təşviq edir.

Peyğəmbər ﷺ buyurur: *"Sevən və çox uşaq dünyaya gətirənlərlə evlənin! Şübhəsiz ki, ümmətlər arasında, sizin çoxluğunuzla fəxr edərəm!"* (Əhməd, İbn Hibban)

Çinlilərə baxın! Onların sayı artdıqca, Avropa ölkələrindən onlara hörmət xeyli artdı, halbuki vaxtilə onları nəzərə almırdılar və onlara yuxarıdan aşağı baxırdılar.

## 2 — Qadının sonsuz olması.

Bəzən qadın, ya sonsuzluqdan, yaxud yaşlı olduğu üçün uşaq dünyaya gətirə bilmir. Ər isə, uşaq sahibi olmaq, öz övladlarının olmasını istəyir. O nə etməlidir? Boşanıb, başqa qadınla evlənməlidirmi? Yoxsa yenə də başqası ilə evlənib, birinci arvadı ilə qalmalı, ona hörmət edib, onu qorumalıdırmı?

## 3 — Müharibələrin daimliyi.

İkinci Dünya Müharibəsindən çox keçməyib. Ondan sonra, Avropada hər kişiyə yeddi qadın düşürdü. Yaxınlarda isə - İraq və başqa, başqa müharibələr oldular.

Çoxarvadlılığın olmamasına görə nə qədər dul qadın və yetim uşaq qalıb, nə qədər günahlar baş verib, bunu ancaq Allah bilir!

## 4 — Kişilərə nisbətən, qadınların sayının artıq olması.

Tədqiqatlar təsdiqləyib ki, bütün xalqlarda kişi ölümləri, qadın ölümlərini üstələyir, hətta qızların doğum nisbəti daha yüksəkdir və üstəlik, bu

tendensiya daim artır! Belə ki, məsələn, İsveçdə və ABŞ-da bu nisbət 1-in 4-ə, Rusiyada 1-in 5-ə, Yaponiyada 1-in 6-ya, Afrika ölkələrində 1-in 5-ə, Çində bəzi yerlərdə 1-in 10-a bərabərdir.

Bundan əlavə, dünyanın hər yerində, qadınların ömrü kişilərdən daha uzundur. Və bir çox ölkələrdə bu fərq çox böyükdür! Məsələn, MDB-də 8 il, Fransada 6-8 il, ABŞ-da 6,6 il, Böyük Britaniyada 6 ildir!

Hollandiyada, qadınlar üçün orta ömür uzunluğu 76, kişilər üçün isə 71 yaşdır. Yaşı 100-ə çatan 92 nəfərdən yalnız 29-u kişidir!

Peyğəmbər ﷺ buyurur: *"Qiyamətin əlamətləri, elmdə azalma və cahilliyin artması, zina və spirtli içkilərin yayılmasıdır, kişilər gedəcəklər və hər kişiyə əlli qadın düşənə qədər qadınlar qalacaqdır"* (Buxari və Muslim).

**5 — Arvadın xəstəliyi.** Qadın, uzun sürən xəstəliyə və ya əri ilə yaxınlığına mane olacaq, başqa bir şeyə məruz qala bilər, ya da ola bilər ki, hər hansısa bir şey ona evə və ya uşaqlara baxmasına mane olacaq. Bu halda, kişinin başqası ilə evlənməsi lazım olacaq və əgər ona bunu qadağan etsək, şübhəsiz ki, pisliklər çoxalacaq və günahlar artacaq. Bu, ər-arvad arasında, münasibətlərin pisləşməsinə səbəb ola bilər. Hətta o, arvadının onun üçün bir növ yük olduğunu düşünə bilər, baxmayaraq ki, bunu biruzə verməsə də.

**6 — Kişi və qadın arasında fizioloji fərq.** Birincisi, kişinin bir neçə arvad saxlamaq qabiliyyəti (bir neçə ev təsərrüfatını idarə etmək bacarığı), bir neçə evi idarə etmək qabiliyyəti var. O, müxtəlif iş və vəzifələri yerinə yetirmək qabiliyyətinə malikdir.

İkincisi, kişi və qadın təbiətcə fərqlənirlər. Kişilərdə reproduktiv (törəmə) funksiya 80-90 yaşda başa çatır, bəziləri üçün bir qədər tez, bəziləri üçün bir az gec, qadınlarda isə çox erkən 40-50 yaş arasında bu dayanır. Yəni kişi 90 yaşında da ata ola bilər, qadın isə 50 yaşında ana ola bilməz.

Və bu uzun müddət ərzində, övlad sahibi olmaq istəyinə qadağa qoysaq, bu kişiyə haqsızlıq olar, xüsusən də övlad sahibi olmaq istəyi, evliliyin məqsədlərindən biridir.

Üçüncüsü, qadın vaxtaşırı ya menstruasiya ağrısı, ya əhval-ruhiyyənin olmaması, ya da hamiləlik dövründə, xüsusən də son aylarda yaranan çətinliklər səbəbindən, narahatlıq hiss edir. Bundan sonra, doğuşdan sonrakı

qanaxma (nifas), sonra isə əmizdirmə dövrü gəlir, necə ki, Allah bütün bunları bir ayədə bildirmişdir: **“Anası onu (bətnində) əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun (bətndə) daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir”** (Əhqaf surəsi 15-ci ayə).

Bu zaman, kişi sağlamlığından və yaxşı qidalanmasından asılı olaraq hər gün olmasa da, həftənin dörd-üç günü təbii ehtiyaclarını ödəməyə tam hazır olur. Əgər kişi, özünü yalnız bir arvadla məhdudlaşdırarsa, bu, onun təbii mayalanma ehtiyacını, eləcə də iffətini qoruyub saxlamasına maneə olar.

### 7 — Kişilərin fiziki gücü.

Əsasən kişinin fiziki gücü, qadından yüksəkdir və cinsi əlaqəyə ehtiyacı daha çox və tez-tez olur. Və qadın, onu hər an cəlb edə bilər, amma qadının kişidən fərqli olaraq, daimi istəyi yoxdur. Buna, qadınların utancaqlığını da əlavə edin, hansı ki, Allah bunu onlara kişilərdən daha çox bəxş etmişdir. Biz görürük ki, kişi qadını axtaran və ona can atan, onu daim arzulayandır, amma qadın isə elə deyil. Bunun təsdiqi olaraq, görürük ki, şəriət, ərə itaətsizlik etməmək barədə, daim xəbərdarlıq edir, çünki əsasən qadın istənilən (arzu olunan) şəxsdir, çünki fizioloji baxımdan, kişinin qadına daha çox ehtiyacı var. Məhz buna görə də, qadının ərinə itaətsizliyi kişi üçün peşmanlıq və kədər ilə yanaşı, zərərli nəticələrə də səbəb olur.

Və səhih bir hədisdə peyğəmbər ﷺ belə buyurmuşdur: *“Kişi öz arvadını yanına çağırarsa, qadın sobanın qabağında olsa belə, onun yanına gəlsin”* (Əhməd, Nəsai, ət-Tirmizi, İbn Hibban)

Məlumdur ki, təcavüz halları əsasən qadınlara qarşı olur.

Allahın, qadına küçədə təkbaşına səfərə getməsini və ətir sürməyi qadağan etməsinin səbəblərindən biri də budur. Kişidə ehtirası oyatmamaq üçündür.

Hər kəs bilir ki, qadına adətən müəyyən bir hazırlıq lazımdır, bir kişinin ona sahib çıxması üçün ön sevişmə lazımdır, amma kişinin isə buna ehtiyacı yoxdur. Bundan əlavə, biz bilirik ki, Allah qadını, yataqda əri tərəfindən tərk edilməyi qadın üçün cəza etmişdir. Bir kişi, yalnız bir arvadla evlidirsə, əksinə, bu, qadın üçün cəza deyil, kişi üçün cəza və əzab olacaqdır. Qadın isə, bundan öz məqsədlərinə çatmaq üçün istifadə edir.

Buna görə də, çox vaxt bir arvadı olan kişi, o qadına tabe olur, arvadın rəhbərliyinə tabe olur və belə ailələrdə hakimiyyət arvadın əlinə keçir.

### 8 – Uzunmüddətli səfərlər.

Bir çox kişilər, işlərinə görə səyahət edirlər. Onlar, uzun müddət evdən kənarda qalmalı olurlar. Birinci arvad, müxtəlif səbəblərdən əri ilə səyahət edə bilmir, bu səbəb, uşaqların çoxluğu ilə əlaqədar ola bilər, ya da onları böyütməklə, öyrətməklə və ya başqa səbəblərlə əlaqədar ola bilər. Ona görə də, başqa bir evliliyə ehtiyac yaranır ki, zina edilməsin.

### 9 — Yetərli olmayan maddi vəziyyət.

Bir çox kişilər, gənc qızlardan fərqli olaraq, maddi vəziyyətlərinə görə, uzun müddət subay qalırlar. Onların nə mənzil təşkil etmək imkanları, nə də ailə həyatı qurmaq üçün lazımi vəsaitləri yoxdur. Amma demək olar ki, gənc qızların hamısı erkən yaşda ailə qurmağa hazırdırlar və ailə qurmağa nə məişət, nə də şəriət maneələri yoxdur.

### 10 — Bağlılığın və birliyin gücləndirilməsi.

Əgər cəmiyyətdə, ailə bağları genişlənərsə, bu, insanlar arasında birliyə gətirib çıxarar, onlar arasında əlaqəni gücləndirər. Axı heç nə, insanları ailə bağları kimi bir araya gətirmir.

### 11 — Bir insanın məşhurluğu.

Kişilər arasında elm adamları, tanınmış ictimai xadimlər, yüksək vəzifəli məmurlar var ki, onlar işlərinə görə daim evdən kənarda olurlar. Belə kişinin övladlarına baxacaq, qonaqlara baxacaq, qarşılayacaq, yanında olarkən, ona qulluq edə biləcək birinə ehtiyacı var. Və çoxarvadlılıqda da məhz bunun həllini tapırıq, necə ki başqa bir çox problemlərin və çətinliklərin həllini bunda tapdığımız kimi.

12 — İctimai problemlər.

Bəzən yetim qızların işlərini görən kişi, onlarla ünsiyyətə girməli olur və fitnədən qorxur. Bu yetimlərlə evlənmək, onlara qayğı göstərmək üçün yaxşı bir yol olacaq. Məsələn, qız öz yoxsulluğu və ya eybəcərliyi və ya sonsuzluğu səbəbindən arzuolunmaz hala gəlir. Heç kim onunla evlənmək istəmir. Çoxarvadlılıq həm kişiyə, həm də arvadına, yetim qızı qorumaq və qayğı göstərmək imkanı verəcək.

Bəzən ərinin ölümündən sonra, qadın dul qalır və bəlkə də uşaqları var hələ. Peyğəmbər ﷺ isə buyurur: "Kim dul qadınlara və kasıblara qayğı göstərirsə, Allah yolunda döyüşçü (mücahid), oruc tutan və ya daim namazda duran biri kimidir". (Buxari və Muslim)

13 — Cəmiyyətin xəstəliklərdən və əxlaqın pozulmasından qorunması.

Şübhəsiz ki, çoxarvadlılıq, cəmiyyəti parçalanmaqdan və mənəvi düşgünlükdən qoruyur, hansı ki, bu parçalanma və düşkünlük, fahişəliyin yayılmasına və atılmış uşaqların sayının artmasına səbəb olurlar. İnsanları, ginekoloji və bir çox xəstəliklərdən qoruyur. Ailələrdə, boşanmalara və nifaqa səbəb olan, avaralıqdan uşaqları qoruyur.

14 – Boşanma və ailə problemlərinin azaldılması. Ağıllı insan, etiraz etməz ki, çoxarvadlılıq - kişini sakitləşdirir, onu daha müdrik və tədbirli edir, məsuliyyətli edir, onu düşünülməmiş hərəkətlərdən və ehtiraslarını haram yollarla təmin etməkdən uzaqlaşdırır, onu qərarlarında ehtiyatsızlıqdan uzaqlaşdırır.

Media, bu mövzuda, yəni guya çoxarvadlılığın ailə problemlərini artırması ilə bağlı bir çox insanı yanıldıb. Belə insanlar, indiki evliliklərinə baxaraq, müqayisə edirlər və düşünürlər ki, yenidən evlənmək, problemləri daha da artıracaq. Bil ki, birinci arvadınla müqayisə etməyin, burda tamamilə yersizdir. Çoxarvadlılıq, sabitlik və əmin-amanlığa, məhəbbət və əlaqənin güclənməsinə səbəb olur, xüsusən də niyyətlər səmimi və şəriətə uyğundurlarsa. Həqiqətən, yalnız bir həyat yoldaşı ilə məhdudlaşmaqda daha çox problemlər var.

Çoxarvadlılığın az olmasına və ya olmamasına baxmayaraq, boşanmaların sayına baxmaq kifayətdir.

Evdə qulluqçuların olması, azğın ölkələrə səfərlər, porno saytlara və eyni telekanallara baxaraq gecələmək, bütün bunlar, ailələrin dağılmasına gətirib, çıxarır və bunun ilk səbəbi — bir qadınla məhdudlaşmaqdır. Bəzən, bəzi arvadlar, əri ilə qulluqçu arasındakı münasibəti aşkar edərək, tək qalırlar, yəni ər arvadını boşayıb, qulluqçu ilə evlənir!

Bu və buna bənzər misallar, tək çarənin — İslamın təklif etdiyi qaydada olduğunu təsdiqləyir.

Və nəhayət, biz müsəlmanlar əminik ki, İslamın bizə təklif etdiyi qaydada, çoxarvadlılıq dinimizin qürurlarından biridir. Və bu, bizə bu gün cəmiyyətin ən çətin, mürəkkəb problemlərini həll etməyə imkan verəcəkdir və bu problemlərin, İslam hökmlərinə müraciət etməkdən başqa çarəsi yoxdur.

# ÇOXARVADLILIĞA TƏŞVİQ ETMƏYİN ƏHƏMİYYƏTİ

**1. Bu, peyğəmbərlərin və elçilərin yoludur.**

Uca Allah buyurur: **“Biz səndən əvvəl də elçilər göndərdik və onlara zövcələr və övladlar verdik”** (Rad surəsi 38-ci ayə).

Əbu Hureyrə (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah ﷺ buyurdu: *“Bir dəfə, Süleyman ibn Davud (onların hər ikisinə salam olsun) dedi: “Mən bu gecə, yüz qadını (yaxud doxsan doqquz qadını) ziyarət edəcəyəm və onların hər biri Allah yolunda döyüşəcək bir oğlan uşağı dünyaya gətirəcək.” Onun yol yoldaşı dedi ki: “Allah istəsə de” (inşəAllah). Amma o “Allah istəsə” demədi və qadınlar hamilə qalmadılar. Onlardan yalnız biri, yarım insan dünyaya gətirdi. Muhəmmədin ﷺ canı əlində olana and olsun ki, əgər o “Allah istəsə” desəydi, onların hamısı, Allah yolunda birlikdə vuruşardılar”.* (Buxari və Muslim)

İbn Kəsir “Bidəyə vən-nihayə” kitabında demişdir: “Bəzi, ilk müsəlmanlar, Süleymanın min qadını olduğunu demişdilər: Onlardan yeddi yüzünə mehr vermişdi, üç yüzü isə cariyə idilər. Əksini də deyənlər var: üç yüz azad arvadı idi, yeddi yüz isə cariyə idi. O, qadınlardan, həzz almaqda heyrətamiz bir qabiliyyətə sahib idi."

Buda, Allahu Təalanın bizə bu dediyi ilə bərabərdir: **“Bunlar, Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl”** (Ənam surəsi 90-cı ayə).

**2. Bu, Rəsulullahın yoludur və bunda unudulmuş sünnənin dirçəlişi vardır.**

Məsələn, o buyurdu ki: *“Evlilik mənim sünnəmdir, kim mənim sünnəmə əməl etməzsə, məndən deyildir. Evlənin, həqiqətən, mən qiyamət günü sizin sayınızla fəxr edəcəyəm, kim bacarmazsa, onda oruc tutsun, həqiqətən, oruc onun üçün qoruyucu olar”.* (İbn Macə)

**3. Bu əməl, ümmətin, saleh xəlifələrinin, səhabələrinin və imamlarının yoludur.**

Əbu Bəkrin beş arvadı olduğu bildirilir (təbii ki, eyni vaxtda deyil, çünki eyni vaxtda, 4-dən çoxuna icazə verilmir). Budur onların adları: Umm əl-Xeyr Səlma

binti Sahr, Quteylə, Ummu Rumman, Əsma binti Humeys, Həbibə binti Haricə (Allah onlardan hamısından razı olsun). Onlardan başqa, onun cariyələri də var idi. ("ət-Təbəqat", İbn Sada)

Ömər ibn Xəttabın (Allah ondan razı olsun), doqquz arvadı var idi. (“Münaqib əmir əl-möminin”, İbn əl-Cövzi)

Osman ibn Əffanın (Allah ondan razı olsun), yeddi və ya səkkiz arvadı var idi. ("Tabaqat əl-kubra")

Əli ibn Əbu Talibin (Allah ondan razı olsun), səkkiz arvadı var idi. Yəni ümumi bütün övladlarının analarını, cariyələrini saymasaq. (“Tabaqat əl-kubra”)

Sağlığında cənnət ilə müjdələnən Təlhə ibn Ubeydullah, uşaqlarının analarını nəzərə almasaq, beş qadınla evlənmişdir.

Zübeyr ibn əl-Avvam da Cənnətlə müjdələnənlərdən biri idi, altı qadınla evlənmişdir.

Sə'd ibn Əbi Vəqqasın on bir arvadı var idi, əsirləri, yəni cariyələri nəzərə almasaq.

Əbdürrəhman ibn Aufun on beş arvadı var idi.

Səid ibn Zeyd on arvadla evlənmişdir.

Abdullah ibn Ömər altı qadınla evlənmişdir.

İmamlar arasında, çoxarvadlılığın fitrə olduğunu deyənlər də var idi, məsələn, Qədi İyad, İbn Həcərin rəvayət etdiyi kimi, “Şifa” kitabında bunu demişdir. (“Fəthul-Bari”)

**4. Nəslin qorunması və ümmətin artması.**

Bir insanın arvadı nə qədər çox olarsa, övladı da bir o qədər çox olar, və Muhammədin ümmətinin sayı da bir o qədər çox olar.

**5. Ümmətin gücünün artması.**

Müsəlman alimi və ilahiyyatçı, hədis üzrə ən böyük mütəxəssis, onun adını daşıyan hənbəli məzhəbinin banisi Əhməd bin Hənbəl belə demişdir: “Subaylıq

- islamdan deyil. Peyğəmbər ﷺ dörd arvadla evləndi, o öldükdə isə onun artıq doqquz arvadı qaldı ondan sonra. Əgər insanlar, evliliyi tərk etsəydilər, cihad olmazdı, həcc olmazdı və başqa başqa şeylər də olmazdılar. Bəzən peyğəmbər ﷺ yuxudan oyanar və ailəsinin yeməyə heç bir şeyi olmazdı, lakin o vəfat etdikdə doqquz qadınla evli idi. Və o daima evlənirdi və buna təşviq edirdi. O, bu yolla, bu dünyanı tərk etməyə qadağan etmişdir. Kim bu yolla getmək istəməzsə, haqq yolda deyildir" ("ən-Nəzair", Bəkr Abdullah əbu Zeyd).

İmam İbn əl-Cövzi buyurur: "Ola bilsin ki, cinsi yaxınlıq nəticəsində, İmam Şafii və ya Əhməd ibn Hənbələ oxşayan bir uşaq dünyaya gəlsin və bu, ata-ana üçün min il ibadətdən daha xeyirli olsun!" ("ən-Nəzair").

### 6. Cəmiyyətin əxlaqsızlıqdan təmizlənməsi.

Məşhur bir hədisdə, peyğəmbər ﷺ evlilik haqqında danışarkən evliliyin, insana gözlərinin aşağı salmasına və cinsiyyət üzvlərini qorumağa kömək etməsini söyləmişdir.

Bir ingilis xanım demişdir: "Təəssüf ki, bizim ölkə, təmizlik və iffətin hökm sürdüyü müsəlman ölkəsi kimi deyil. Və nə qədər çox evlilik olarsa, insanlar arasında bu ailə bağları da bir o qədər möhkəmlənəcəkdir".

### 7. Buna olan təbii ehtiyac.

Keçmiş xalqların tarixinə, peyğəmbərlərin və elçilərin həyatına, saleh sələflərin həyatına, ta ki, bizim dövrümüzə qədər olanlara nəzər salan hər kəs, başa düşəcək ki, çoxarvadlılıq bütün dinlərdə məşhur olub. Çoxarvadlılığa olan təbii ehtiyac, buna təşviq edir və əksinə özünü yalnız bir arvadla məhdudlaşdırmağa təşviq etmir.

"Kişinin bir neçə arvadının olması onun kişiliyinə dəlalət edir" — həmişə belə olub və belədir. Necə ki, bu barədə Qazi İyad "Şifa" kitabında demişdir. Təəccüblənməyin ki, İslam çoxarvadlılığa icazə vermək üçün deyil, yalnız onu məhdudlaşdırmaq üçün gəlib. Aydın sərhədlər qoyub və bu vəziyyəti tənzimləmək üçün gəlib. Axı Peyğəmbər ﷺ, İslamı qəbul edən və on arvadı olan, Gilan ibn Üməyyə əs-Səqəfiyə onlardan dördünü seçməyi, qalanlarına isə talaq verməyi demişdir.

Bu gün, biz öz qanunları və şüarları ilə, çoxarvadlılığı qadağan edən xalqların, əslində buna necə icazə verdiyini görürük. Çünki Allah tərəfindən, onların özündə təbii olan şeyləri yaratmasını, qadağan etmək mümkün deyil.

**8. İstehsalın və maddi vəziyyətin artması.**

Allah buyurur: **"Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər"** (Nur surəsi 32-ci ayə).

Peyğəmbər ﷺ buyurmuşdur: *"Məgər zəfər və ruzi, sizə sizdən olan zəiflərə görə verilmirmi?"* (Buxari)

Bir çox Qərb alimləri, dərin araşdırmalar apararaq, çoxuşaqlı ailələrin vəziyyətini öyrənərək, bu qaydanı təsdiq ediblər. Onların gəldiyi maraqlı nəticə budur. Çoxuşaqlı ailələrin üzvləri, həyatlarının əvvəlində müəyyən maddi sıxıntılar yaşasalar da, zaman keçdikcə bu vəziyyət dəyişir və onlar bu həyatda, kiçik ailələrdə böyüyən insanlardan daha çox şeyə nail olurlar.

# ÇOXARVADLILIQ, KİŞİ ÜÇÜN FAYDALI VƏ XEYİRDİRMİ?

Şübhəsiz ki, İslamda çoxarvadlılığın nizamına nəzər salan hər kəs, burada qeyd olunanlardan başqa bir çox hikmət və faydalar tapacaqdır. Amma kişinin, bu hikmətli hökmdən əldə etdiklərindən, bəzilərinə toxunmaq istərdik.

1. Bunda, unudulmuş sünnənin dirçəldilməsi, ona qarşı mənfi münasibətin dəyişməsi vardır və bunun nə qədər savab olduğunu ancaq Allah bilir!

2. Öz cinsiyyət üzvlərini və evləndiyi qadının da cinsiyyət üzvlərini qorumaqla, Allahın haram buyurduqlarına baxmaqdan, özünü qorumaq, bununla da pozğunluğu və mənəvi düşgünlüyü azaltmaq.

3. Evlilikdən kişinin övladları olur və bununla da o, ümmətin (camaatın) sayını artırır, həm dünyada, həm də axirətdə özü üçün böyük faydalar əldə edir.

4. Kişi zövcələrinə və uşaqlarına xərclədiyi hər şeyə görə, mükafatını alır, təbii ki, əgər bu mükafatı Allahdan gözləsə və ümid edərsə.

5. Ailə həyatı quraraq, məsuliyyət hiss edir, ümmətə qarşı təkəbbürlük yox olur. O, vaxtını özünə fayda verəcək işlərə sərf etməyə, himayəsində olanların qayğısına qalmağa başlayır.

6. Onunla həyat yoldaşları arasında münasibətin möhkəmlənməsi baş verir, çünki məlumdur ki, insan davamlılıqdan yorulur və insan birdən çox qadınla evlənəndə, onun istəyi də artır və kişi özü də arzulanan olur, çünki əvvəlcə bir arvadla, sonra digəri ilə vaxt keçirə bilir. Hədisdə isə deyilir: *“Daha az gözə görsən - (o zaman) daha çox seviləcəksən”* (“Səhih Tərqib və Tərhib”)

7. Elə bir qadın yoxdur ki, qüsuru olmasın, ona görə də çoxarvadlılıq həyat yoldaşlarından birində olmayanı tamamlamağa imkan verir, bununla da kişi ayrılmaq haqqında düşünmür, çünki çatışmayan xüsusiyyətləri digər arvadda tapır, bütün bunlar aralarındakı sevginin artmasına və canlanmasına səbəb olur. “Kişinin qadında görmək istədiyi bütün keyfiyyətlər, nadir hallarda bir arvadda birləşir. Rus ədəbiyyatında, bir çox əsərlər, kişi psixologiyasının elə bir xüsusiyyətini əks etdirir ki, kişi üçün cinsi yaxınlıqla - sevgi və evlilik ayrıdırlar. Kişinin cinsi istəyi, sevgi hissi və evliliyi (dar çərçivədə anlaşılan, nikah sözünün altında “birgə ev işlərinin idarə edilməsi və uşaqların tərbiyəsi” kimi başa

düşülən) kişi üçün çox vaxt, ayrı cür anlaşılır və buna görə də, onun çoxarvadlılığa təbii meyli olur. Hətta Dostoyevskinin "İdiot" əsərindən "xəstəliyinə görə, qadınları heç tanımayan" knyaz Mışkin də Nastasya Filippovnaya və Aqlayaya olan hisslərini müzakirə edərkən, heyrətlə deyir ki, o, hər ikisini sevir! Məhz hər ikisini, amma fərqli sevgi ilə. Belə bir heyrətamiz hadisə, təkcə Fyodor Mixayloviç Dostoyevski tərəfindən deyil, bir çox digər ədəbiyyat klassiklərinin də diqqətini çəkmişdir.

İslam, kişinin bu keyfiyyətinin icazəli, qanuni şəkildə həyata keçirilməsi üçün zəmin yaradır və hətta şəriətin göstərdiyi yolda, kişinin bütün qadınları özlərini qorunmuş və hörmətli hiss edirlər". (F.Ejova "Niyə İslam çoxarvadlılığı dəstəkləyir, çoxərliliyi isə qəbul etmir")

8. Maddi sərvətin və ərzaqın, qidanın artması. **"Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah (lütfü ilə) Genişdir, Biləndir!"** (Nur surəsi 32-ci ayə)

9. Bəzən, birinci arvad xəstələnəndə və ya harasa gedəndə, yaxud da buna bənzər bir hadisə baş verəndə, obiri arvad ona və onun uşaqlarına baxır.

10. Arvad tək olanda və ərinin başqası ilə evlənməyi, düşünmədiyini hiss etdikdə, o, qadın çox vaxt özünə lazımi qaydada baxmır. Əri başqası ilə evləndikdə isə arvadlar, onlardan əri üçün hansının daha çox istəkli olmasını görmək üçün, bir-biri ilə yarışmağa başlayırlar.

# ÇOXARVADLILIĞIN, QADINA FAYDASI VƏ XEYİRİ VARMI?

Bəzən, bəziləri təəccüblənir ki, çoxarvadlılıqda qadınlar üçün heyrətamiz faydalar və möhtəşəm xeyirlər var. Çünkü bu məsələ, ona dəhşətli bir şey kimi təqdim olunur, sanki birinci arvad və uşaqları üçün bu, bir növ təhlükədir. Sanki bu, onun üçün bəla və gizli şərdir.

Müsəlman Jurnalistlərinin Ümumrusiya Konfransının iştirakçısı, Aişə Qalina Babiç bu vəziyyəti belə təsvir edir:

“Bu gün, "çoxarvadlılıq qorxusu", bəzi islam ailələrinin üzərində, qorxuducu əzmkarlıqla dolaşır. Gah arvadlar, həyat yoldaşlarına ultimatumlar verirlər: "Ya mən, ya da hələ mövcud olmayan ikinci arvadın!", gah ərlər "zarafatla" idarəolunmaz qısqanclıq nümayiş etdirmək üçün, yoldaşlarını qıcıqlandırırlar. İndi isə internetdə mövzular saralır, feministlər çoxarvadlılıqla silahlanırlar və adi insanların səyləri sayəsində çoxarvadlılıq “islam təbliğatı” kimi qələmə verirlər.

Kimlərsə həsəd apararaq, ardıcıllığa, bizə müasir “hərəmxanalardan” qadınların zülm və alçaldılmasının, kədərli nümunələrini atır. Təəccüblüdür ki, İslam ardıcılları “bədbəxt sevgi” haqqında, hər hekayəni nadir həvəslə qəbul edirlər. Bu hekayələr, bədii uydurmalar ilə bəzənirlər, və sadə “İslami” xalq sənət əsərinə çevrilirlər və onlar, uşaqlar üçün olan qorxu hekayələri çox xatırladır:

“Daim, vaxtında namaz qılan, örpəkli, hörmətli müsəlman bir bacı, ərini çox sevirdi və ona güvənirdi. Amma bir gün, qonşu evdən olan gəzəyən, əxlaqsız qadın, onun ərini yoldan çıxarır və hətta İslamı qəbul edir ki, onunla evlənsin. Kişinin ona yazığı gəldi və onu ikinci həyat yoldaşı kimi aldı. Və bu qadın onların mənzilinə köçür, birinci arvadını və uşaqlarını ələ salır, araq içir və ərinin yanına pozğun rəfiqələrini gətirir. Bizim bədbəxt bacımız isə yeddi uşağını götürüb getməli və küçədə dilənməli olur. Əri isə, o bəzənmiş sarışınla qalıb, onunla yaşayır”.

Gənc və ya orta yaşda olan ağıllı, həssas müsəlman qadınlar “ikinci arvad olmaq istəyən məşuqələrin” hiyləgərliyi haqqında hekayələrlə o qədər dolublar ki, onlar gələcək evliliyi əziz ərinə tam və qeyd-şərtsiz sahib olmaq

uğrunda, əbədi mübarizə kimi qəbul etməyə başlayırlar. Həqiqətən, nağıl o qədər də qorxulu deyil, amma nəticələri isə qorxuludurlar”.

Bu yazıqlara belə deyə bilərik: Bəzi çətinliklər, daha çətin bir şeydən asan və daha yaxşı ola bilərlər. Həqiqətən də, çoxarvadlılıqdan ilk faydalanan qadının özüdür, istər o birinci arvad olsun, istərsə də ikincisi. Bundan bütün yaxşılıqlar qadına qayıdır, kaş o bunu bilsəydi! Bu, hətta düşmənlərimizin də şahid olduğu bir şeydir. Məşhur fransız psixoloqu, sosioloqu, sosial psixologiyanın banisi Gustov Lebon deyir: “Çoxarvadlılıq - İslamın qanuniləşdirdiyi üsula uyğun olaraq, öz ölkələrində bunu tətbiq etmək istəyən icmalar üçün ən yaxşı, tam sistemdir, həmçinin müsəlman qadının xoşbəxt və hörmətli olmasının yoludur. O, kişilərin hörmətinə, Qərbdəki bacılardan daha layiqdir”. Və bütün bunlar ona görədir ki:

1 — Qadın kişi ilə sünnəni diriltməkdə həmkarlıq edir, ona yaxşılıq və xeyirxahlıq etməkdə kömək edir və həm onun, həm də onun evləndiyi qadının cinsiyyət üzvlərini qorumaqda kömək edir;

2 — İkinci arvadın gəlişi ilə, ər ilə arvadın aralarındakı sevgi artır, münasibətlərindəki adiləşmə aradan qalxır, qadının kişiyə və kişinin qadına olan hissləri daha da güclənir. Qadın onun üçün daha çox darıxmağa başlayır və o da onun üçün darıxır. Sevgi və istək hissi artır;

3 — Ərin arvadına qoyduğu tələblərin çətinliyi yüngülləşir. Ər daha az tələbkar olur və ya arvadına qoyduğu tələblər asanlaşır, çünkü çatışmayan keyfiyyətləri başqasından ala biləcəyini bilir;

4 — Ola bilsin ki, ərini itirib yenidən evlənəcək və yanında ona baxacaq, ona dəstək olacaq, övladlarını böyüdəcək birisi olacaq;

5 — Qadın ərinin evlənməsinə razılıq verməklə, pisliyin yayılmasının qarşısını almış olur, hansı ki, o pisliyin qurbanı əri ola bilərdi. Bunun səbəbi ilə, əri onu tərk edə bilər. Çünki o, buna daha çox qadirdir. Və ola bilsin ki, qadının, Allah qorxusundan Allah ərini onun üçün qoruyub saxlayar və onun qəlbini ondan döndərməz. Əksinə, ər arvadının təkcə özü haqqında düşünmədiyini görəcək və bununla da onun sevgisinin doğruluğunu hiss edəcək. Bu səbəbdən də qadın, ondan yalnız sevgi və hörmət görəcək;

6 — Başqası ilə evlənməklə, yuxarıda qeyd edildiyi kimi, ərinin dolanışığı artar və qadın bununla da maddi vəziyyətini yaxşılaşdıra bilər;

7 — Səbir göstərməklə, qadın Allahdan mükafat alar. **“Yalnız səbr edənlərə mükafatları hesabsız veriləcəkdir”**. Qadın bəndələrə mərhəmət göstərməklə, Yaradanın ona olan mərhəmətinin təzahürünü görər. Bu mərhəmətlərin təzahürlərindən biri də budur ki, qadın ərini itirdiyi zaman, Allahu Təalə onun yerinə daha da gözəl olan birini qoyar. Bu onun qızlarına da aid edilə bilər. O qadın öz ərinə qayğı göstərdiyi kimi, Allahu Təalə da onun qızlarına qayğı göstərər.

# ÇOXARVADLILIĞA QARŞI OLAN QADAĞANIN ZƏRƏRİ

**1. Özünü yalnız bir arvadla məhdudlaşdırmaq, xristianlara bənzəməkdir.**

Peyğəmbər ﷺ buyurmuşdur: *“Evlənin və xristian rahibləri kimi olmayın, həqiqətən mən qiyamət günü, başqa ümmətlər qarşısında, sizin sayınızla fəxr edərəm (sevinərəm)”*. (əl-Beyhəqi)

Çoxarvadlılığa qadağa, xristian rahibləri tərəfindən uydurulmuş bir yenilikdir. Nə "Əhdi-Ətiq"-də, nə də "Əhdi-Cədid"-də (İncilin versiyalarında) çoxarvadlılığın qadağan edilməsinə dair, bir dənə də olsun işarə yoxdur. Roma Kilsəsi, bir qanuni arvadın olmasını şərtləndirən, yunan-Roma mədəniyyəti ilə vəziyyəti uyğunlaşdırmağa çalışaraq, eyni zamanda cariyələr və fahişəlik yoluna icazə verərək, çoxarvadlılığı qadağan etdi. Müqəddəs Avqustin deyirdi ki: “İndi bizim dövrümüzdə və Roma adətlərinə görə, artıq ikinci arvad almağa icazə verilmir”. Pavelın Timofeyə yazdığı məktubunda, əslində belə bir parça var: "Ancaq yepiskop qüsursuz, bir arvadın əri, ayıq, iffətli və ləyaqətli olmalıdır." Amma gördüyümüz kimi, bu, çoxarvadlılığın haram olmasına qətiyyən dəlil deyil, əksinə, onun icazəli olmasına işarədir. Yepiskop kimi, bəzi yüksək vəzifəli şəxslər istisna olmaqla, buna icazə verilir.

Bu mətndə, keşişin bir arvadının olmasından söhbət gedir, bu, kesişə tövsiyədir, bütün insanlara əmr deyil! Bəli, çoxarvadlılıqdan çəkinmək, əsrlər boyu insanların şüuraltına çoxarvadlılığın pis olduğunu salan, onun pozğunluq olduğunu, qeyri-təbii olduğunu və sair kimi düşünmək, kafirlərə bənzəməkdir. Və təəssüf ki, bəzi müsəlmanlar, çoxarvadlılıqla bağlı eyni cür düşünürlər.

Rəsulullah isə buyurmuşdur: *“Hər kim özünü bir qövmə bənzədirsə, o da onlardandır!”* (Əbu Davud)

**2. İslam düşmənlərinin taktikasına boyun əymək.**

Dinimizin düşmənləri, çoxarvadlılığın həm fərd, həm də cəmiyyət üçün böyük faydalarını gördükdə, onları İslama və onun ardıcıllarına qarşı həsəd və nifrət bürüdü. O zaman onlar, İslamı ədalətsiz göstərmək üçün, müxtəlif hekayələr uydurmağa başladılar (hərçənd onların bu gizli sui-qəsd, sözləşmələri onların öz başlarında və davamçı əlaltılarının başlarında qalacaq),

onlar bu batil əhvalatları müsəlmanların övladları arasında yaymağa çalışırdılar ki, bu bənzərsiz nizamdan və düzgün hidayətdən - şəriətdən üz döndərsinlər. Müsəlmanların bu faydanı görməməsi və bir çoxunun bu açıq-aşkar faydalı şeydən üz döndərməsi üçün edirlər bunları.

**"Onlar, özləri küfr etdikləri kimi, sizin də küfr edib, (onlarla) eyni olmanızı istəyərlər".** (Nisa surəsi 89-cu ayə)

Onların ardınca gedən, onların fikir və taktikasına tabe olan, isə din düşmənləri ilə həmfikir olandır. Vay onun halına həm bu dünyada, həm də axirətdə!

**3. Çoxarvadlılığı tərk etmək, pislik və pozğunluq üçün geniş qapı açır.**

Şübhəsiz ki, bəzi ölkələrdə, qüvvədə olan çoxarvadlılığa qarşı olan qadağa - halal olanın qadağan edilməsidir, haram olanın isə icazəsidir və ümumiyyətlə, bu ölkələrin özləri açıq-aşkar iyrəncliklər, pisliklər, xəstəliklər, pozğunluqlar bataqlığında olduğu halda, necə çoxarvadlılığı müzakirə edə bilərlər.

Bir xəstə, başqasını necə sağalda bilər?!

Qoy əvvəlcə özlərini sağaltsınlar. Amma, İslamın təklif etdiyi, dərmana müraciət etmədikcə sağalmazlar.

Amma hələ ki, onlar, yalnız əslində zəhər olan ilə müalicə edirlər.

**"...Ehtiraslara qapılanlar, sizi çox kənara meyl etməyə (haqdan uzaqlaşmağa) yönəldərlər".** (Nisa surəsi 27-ci ayə)

**4. Çoxarvadlılığı tərk etmək, ər-arvad arasında boşanma və nifaqın səbəbidir.**

Bunun səbəbi budur ki, kişi haram yollarla, məmnunluğu axtarmağa başlayır. Yaxud özünə və həyat yoldaşına münasibətdə haqqı pozulmuş biri kimi hiss etdiyi üçün. Yaxud da arvadının, məsələn: zahiri görkəmində, bəlkə də xasiyyətində bəyənmədiyi böyük bir qüsuru var və bu barədə ona danışaraq onu narahat etmək istəmir. Amma ikinci arvadda, birincidə olmayan bir şeyləri tapır və ondan ayrılmaqdan başqa çıxış yolu və ya həll yolunu görmür, çünki birinci arvadı ərin başqası ilə evlənməsinə razı olmur.

Bununla da o, özü evini, həyatını dağıdıb, övladlarının atasız qalmasına səbəb olur. Bunun üçün, bütün məsuliyyəti o qadın daşıyır, o və cəmiyyət! Bəzi insanların, aldanaraq düşündüyü kimi, onun əri məsuliyyət daşımır. Əgər o

qadın razılaşsaydı, əgər cəmiyyət icazə versəydi, o dözərdi və birində olmayanı, digərində tapardı.

Onun qəlbi sakitləşərdi, problemləri həll olunardı və birincidən ayrılmazdı.

**5. Sünnə və saleh sələflərin əməllərinə zidd olmaq.**

Allahu Təalə evlənməyi əmr etdi və ilk başladığı şey, iki rəqəmi idi və buyurdu: “xoşunuza gələn (halal) qadınlardan ikisi, üçü və dördü ilə evlənin”. Peyğəmbərin ﷺ özü də, bunu öz sözləri və əməlləri ilə izah etmişdir, saleh xəlifələr və səhabələr (Allah onlardan razı olsun) də öz əməlləri ilə izah etmişlər.

Möhtərəm Şeyx İbn Bazdan (Allah ona rəhmət etsin) soruşdular: “Evliliyin əsası bir arvaddır, yoxsa bir neçə?” O cavab verdi: “Şəriətdə əsas — imkanı olan və haqsızlıq etməkdən qorxmayan kişi üçün, bir neçə arvadının olmasıdır, çünkü bunda çoxlu faydalar var: kişinin cinsiyyət üzvlərinin qorunması və evləndiyi qadınların cinsiyyət üzvlərini qoruması və həmin insanların qayğısını çəkmək, ümmətin artmasına səbəb olacaq nəslin artması, tək və şəriksiz, yalnız Allaha ibadət edənlərin sayı artır və buna Uca Allahın kəlamı dəlalət edir: **“Yetim qızlara qarşı ədalətli olmayacağınızdan qorxursunuzsa, onda xoşunuza gələn (halal) qadınlardan ikisi, üçü və dördü ilə evlənin. Əgər (o qadınlarla) ədalətlə dolanmayacağınızdan qorxursunuzsa, onda (onlardan) biri ilə və yaxud sahib olduğunuz cariyələrlə (kifayətlənin). Bu, haqsızlıq etməməyə daha yaxındır”.** (Nisa surəsi 3-cü ayə) Çünki o, (peyğəmbər) birdən çox qadınla evləndi və Allahu Təalə buyurur: **“Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir”.** (Əhzab surəsi 21-ci ayə)

Bəzi səhabələr demişdirlər ki: “Mən ət yeməyəcəyəm”, digəri: “Mən yatmayacağam, ancaq namaz qılacağam”, digəri isə: “Mən heç qadınlarla evlənməyəcəm”. Bu məsələ, peyğəmbərə ﷺ gəlib çatdıqda, o, Allaha həmd və şükür edərək, insanlara bir nəsihət (xütbə) verdi. O buyurdu: *“Mənə filan-filan şeylər gəlib çatdı, amma mən oruc tuturam və iftar edirəm, namaz qılıram və yatıram, ət yeyirəm və qadınlarla evlənirəm, kim mənim sünnəmi istəməzsə, məndən deyildir”.* (Buxari və Muslim)

Peyğəmbərin ﷺ bu əzəmətli kəlamları həm bir zövcəni, həm də bir neçəsini ehtiva edir. Və mən Allahdan kömək diləyirəm”.

**6. İslam ümmətinin sayının azalmasının səbəbi və onun məhv olması.**

İngilis filosofu Herbert Spenser "Sosiologiyanın mənşəyi" kitabında deyir:

"Təbii ki, çoxarvadlılıq, müharibədə kişi əhalisini itirən xalq üçün zərurətdir, çünki belə vəziyyətdə, bir kişiyə yalnız bir arvad düşə bilməz. Əgər xalqın başına, onların kişi əhalisini məhv edən bir hadisə gəlsə, məsələn, müharibə olarsa, o zaman çoxlu qadın ərsiz qalacaq və bu hal, şübhəsiz ki, yeni nəslin doğulmasında qıtlığa səbəb olacaq. Və nəhayətində, bütün qadınlarını uşaq dünyaya gətirməyə məcbur etməyən, xalqlar sonda yox olacaqlar və ya qadınlarının dünyaya uşaq gətirməsi üçün hər şeyi edən xalqlara qarşı müqavimət göstərə bilməyəcəklər".

Çoxarvadlılığın tərk edilməsi, bir xalqın altı-yeddi nəsildən sonra yox olmasına səbəb olur. Allah, müsəlmana dörd qadınla evlənməyə icazə verib və ona istədiyi qədər övlad verir. Və artıq 15 yaşında evlənməyə tələsmək lazımdır!

Bizim vaxtımızda isə bu, otuz yaşında baş verir.

Amma biz bilməliyik ki, erkən yaşda ailə qurmaqla, cəmiyyətimizə tam bir nəsil əlavə etmiş oluruq! Çünkü, otuz yaşında, onlarda ailə qurmağa hazır olan tam bir nəsil olacaq! Amma əgər biz, bir arvadla məhdudlaşsaq və yalnız otuz yaşından sonra ərə versək, bir fasilə baş verəcək və yeddi nəsildən sonra bizdən heç nə qalmayacaq.

**7. Bu, peyğəmbərin ﷺ qadınlarla bağlı, bizə buyurduğuna ziddir, həmçinin bunda, subay qadınların sayının artması vardır.**

Biz, qadına görə "ağlayan" və kişinin onunla ailə qurduğunda, guya onun müəyyən hüquqlarını itirməsinə inanan, qadınları azadlığa çağıran, hər şeydə qadın və kişi arasında bərabərlik tələb edənlərə deyirik ki: "Məgər çoxarvadlılığa qoyulan qadağada, qadınlara qarşı mərhəmət varmı?"

Qadınlara qarşı ən mərhəmətli olan, peyğəmbər ﷺ bizə qadınlar haqqında vəsiyyət qoyub demişdir: *"Bir-birinizə qadınlarla yaxşı davranmağı əmr edin".* O, həmçinin demişdir: *"Sizə iki zəifin: yetimlərin və qadınların haqqını yerinə yetirməyi vəsiyyət edirəm".* Yəni bu, onlara qarşı mərhəmət göstərmək olacaqmı?!

Aişə Qalina Babiç, onlardan bəzilərini belə təsvir edir: “Onlar başlarını dik tutub, hicab taxırlar”. Onların sevimli mövzusu, qadın hüquqları, çoxlu sayda hüquqlar, sadəcə olaraq, İslamda qadının davamlı olaraq ucaldılması və təriflənməsidir. Buradakı digər arvadlar — psixikaya təzyiq göstərən, depressiv məqam. "Əgər mənim, ər sahibi olmaq kimi müqəddəs hüququm pozulursa, mən nə qədər müstəqil və güclüyəm?" Sonra, qadına ehtiram, onun ailə və nikahda mühüm rolu, övlad tərbiyəsindəki məziyyətləri haqqında hədislərə istinad edilir. Alimlərin, arvadlarla məsləhətləşmək, onların işinə, fikrinə və incə təbiətinə hörmət etmək barədə tövsiyələri fəal şəkildə irəli sürülür. Və təəccüblü şəkildə, müsəlman qadının evlilik hüququ bu müzakirələrdən kənara çıxır. Çünki “müstəqillik” üçün bu meyarları müəyyən edən, ətraf cəmiyyət, çoxdan sarsılmaz bir uyğunluq formulunu tətbiq edib: bir ərə - bir arvad. Subay qadınlar şəklindəki formalaşan “qalıq” təbii ki, qanuni statistik səhvdir.

Tərk edilmiş uşaqlar, fahişəlik, ərlərini yoldan çıxaran təcrübəli məşuqələr - bunlar tək arvadlığın (monoqam) reallığının portretinə adi toxunuşlardırlar. Müsəlman qadınların və monoqam nikahların hüquqlarını müdafiə edən qadınlar, öz anlayışlarında o qədər müstəqildirlər ki, özləri də fərqinə varmadan, şəriətdən uzaq qanunlara əsasən, qurulmuş sistemin sadəcə bir hissəsi olurlar”.

Təbiətinə görə eyni olmayan bir şeyi, onlar necə bərabərləşdirmək istəyirlər?! Axı bu, istər din baxımından, istərsə də sağlam düşüncə baxımından mümkün deyil.

Bir çox müsəlman qadın, evləndikdən sonra, Allahdan qorxan ərlərinin zina və günah etmədiyini bildikləri üçün, cinsi mənada passivləşirlər, hətta elələri də var ki, cinsi əlaqə az qala onlar üçün yükə çevrilir, çünki bundan sonra onlar qüsl almalıdırlar. Əslində belə passiv arvadlar, belə ərlərinin yenidən evlənmək istəyinə qarşı üsyan edir, öz tərəflərindən tam ədalətsizlik nümayiş etdirirlər!

### 8. Bir çox xəstəliklərin səbəbi.

Çoxarvadlılığın qadağan edilməsində, bir çox xəstəliklərin sirri vardır. İntihara və dəliliyə səbəb olan psixi və emosional pozğunluqlar.

Cinsi yolla keçən xəstəlikləri demirik.

İkinci Dünya Müharibəsindən sonra Fransada əhalinin 75%-i (!) bunlara tutuldu. Bunun əsas səbəbi fahişəlik və nikahdankənar cinsi əlaqələr olub.

Bütün bunlar, İslamın qoyduğu çoxarvadlılıq yolunun qadağan olunması ilə bağlıdır.

### 9. Ölənlərin və qətllərin sayının artması.

Çoxlu sayda intiharlar olurlar, nəyə görə? Çünki arvad ərinin nikahdankənar münasibətlərini aşkar edir və ya əksinə, ər arvadını xəyanətdə ittiham edir.

Buna - valideynlərin məsuliyyət daşımaq istəməyərək, yeni doğulan uşaqları uşaq evlərinə yerləşdirmələrini və ya ana bətnində, ya da doğuşdan dərhal sonra öldürdüklərini bu cür nigahdan kənar münasibətdən doğulan uşaqları da əlavə edək.

### 10. İstehsalın və maddi sərvətin azalmasının səbəbi.

Çoxarvadlılıq olmasa, nəsil də az olar və bu, işçilərin sayının azalmasına səbəb olar.

Yaşlıların sayı artacaq, nəticədə istehsal aşağı düşəcək və həyat səviyyəsi aşağı düşəcək, maliyyə böhranları güclənəcək.

Əksər iqtisadçılar, təsdiq edirlər ki, əhalinin az olması, iqtisadiyyatın düşməsinin əsas və güclü səbəblərindən biridir. Çünki, doğum nisbətinin azalması, istehlakçıların faizinin azalmasına səbəb olur, buda işsizliyə səbəb olur. Axı hamı bilir ki, istehsalçılar orta yaşlı insanlardırlar, istehlakçılar isə uşaqlar, gənclər, qocalar və təbii ki, istehsalçı olmayan orta yaşlı insanlardır.

Həmçinin atılmış uşaqların artması, “evdə qalmış qızların” sayının artması, fahişəlik, bütün bunlar cəmiyyətin üzərinə ağır yük olur, hökumət onlara dəstək olmaq üçün, yollar axtarır. Amma həmişə uğurlu olmur.

Avaralıq çoxalır, xəstəliklər yayılır və bütün bunların digər zərərli nəticələri.

Bununla bağlı konfranslar, görüşlər, müxtəlif forumlar keçirilir. Bu, cəmiyyəti çıxış yolu və bu problemlərin həlli yollarını axtarmağa külli miqdarda pul xərcləməyə məcbur edir.

# QEYRİ-MÜSƏLMANLAR TƏRƏFİNDƏN TƏSDİQLƏNƏN HƏQİQƏT

Qustav Le Bon deyir: "Şərqdə, çoxarvadlılıq gözəl nizamdır, o cəmiyyətdə əxlaqı yüksəldir, ailələri bağlayır, qadınlara hörmət, xoşbəxtlik bəxş edir, amma bunları Avropada görmürük".

İngilis yazıçısı yazır ki: "Bir çox avara qızlar peyda olublar. Və bu da ümumi bir fəlakətə çevrildi. Bunun səbəblərini isə, çox az adam öyrənir. Şübhəsiz ki, bir arvadla bağlı məhdudiyyət, qızlarımızı avara salıb, kişi məsuliyyətsizliyinə atıb. Kişinin, birdən çox qadınla evlənməsinə icazə verilməsə, şübhəsiz ki, şər daha da artar".

Alman universitet müəllimələrindən biri demişdir: "Alman qadınının problemlərinin həlli - çoxarvadlılığın icazəli olmasıdır. Mən, uğursuz bir ərin tək arvadı olmaqdansa, uğurlu ərin on arvadından biri olmağı üstün tuturam. Və bu təkcə mənim fikrim deyil, bu bir alman qadınının fikridir".

Teosofiya Cəmiyyətinin prezidenti, Enni Vud Besant özünün "Hindistanda yayılmış, dinlər" kitabında yazır: "Ədalətli tərəzidə çəksək, aydın olur ki, qadını qoruyan, yedizdirən və geyindirən müsəlman çoxarvadlılığı, kişiyə yalnız öz şəhvətini təmin etmək üçün, qadını almağa, sonra qarnını, acgözlüyünü doldurduqdan sonra, onu tərk etməyə imkan verən, Qərb fahişəliyindən üstündür."

# NİYƏ ÇOXARVADLILIĞI SEVMİRLƏR (NİFRƏT EDİRLƏR)?

Cavab özünü göstərir. Əsasən, çoxarvadlılığın əleyhinə olanların gətirdiyi dəlillər ya çox inandırıcı deyil, ya da tamamilə əsassızdır.

Əgər onların hamısını birləşdirsək, aşağıdakılar alınır:

**1. Maddi sərvətin olmaması, yoxsulluq və həyat çətinlikləri.**

**2. Fiziki zəiflik.**

Bəzi kişilər, xəstəlik və ya başqa bir səbəb üzündən, evlilik öhdəliklərini yerinə yetirə bilmirlər.

**3. Qeyri-müsəlmanlardan, onların düşüncələrindən asılılıq, onların inanclarına və doğurduğu şübhələrinə əməl etmək.**

Bunun təkzibi yuxarıda verilmişdir, lakin Allahın izni ilə, bu problem daha sonra yenə izah ediləcəkdir.

**4. Bəzi kişilərdə yaranan şübhələr və mövcud olmayan şeylər haqqında səhv fikir.**

Bu da həmçinin, aşağıda müzakirə olunacaq.

**5. Məsuliyyətsizlik.**

İslam məsuliyyət hissini aşılasa da, ümmətimizin bir çox övladları hələ də, bu xəstəliyə düçar olublar. Amma gəmi haqqında, hər bir fərdin bütövlükdə, cəmiyyətə necə təsir etdiyini göstərən hədis, nə qədər gözəldir.

Eqoizm də ümmətin məhv olmasına səbəb olur.

İnsan, nə qədər dul qadınları, qalmış qızları, ərə getməyə ehtiyacı olanları görür, amma buna fikir vermir, hətta harama düşə biləcəyindən də qorxmur!

6. Çürük sosial ənənələrin hökmranlığı.

Bu məqam çox vacibdir. Allah tərəfindən, dini qanun kimi qurulmayan, nə qədər ictimai ənənələrin bir çox müsəlman ölkələrində şəriət (dini qanun) kimi fəaliyyət göstərdiyini görürük. Bu, Allahın dinində cəhalətin hakim olması səbəbindən baş verir, həmçinin həqiqi İslam şüurunun olmaması səbəbindən. Medianın təsiri altında, Qərbin bizə tətbiq etdiyi şablonlara əməl edərək, çoxarvadlılığın "kabus qatili", dəhşətli bir şey olduğuna inandıq. Bizə ona qarşı mənfi münasibət tətbiq olundu.

7. Kişi liderliyinin və şəxsi keyfiyyətlərinin zəifliyi (zəifləməsi) və qadınların liderliyi.

Kişinin yaraşmayan xüsusiyyətlərindən biri də, onun üçün nəzərdə tutulmayan yerə özünü salmasıdır. Allah, kişiləri qadınlara rəhbər etmişdir və üstün olan isə — daha xeyirlidir. Və ona aid olan — idarəçilikdir, tabeçilik deyil. O kiminsə ardınca gedən deyil, əksinə onun ardınca gedilir (o, rəhbərlik edəndir, tabe olmayandır).

Kişi, özü özünü idarə edir. O, özünü ucalda da bilər, yaxud öz ləyaqətini tapdalaya da bilər. Amma indi qadın, kişini idarə etməyə başlayır. Kişi isə, qadına tabe olmağa başlayır. Qərbi təqlid etdiyimiz üçün, bu xəstəlik müsəlmanlar arasında yayılıb. Bu, çox böyük təhlükədir! İş o yerə çatıb ki, arvad, ərinin ona çoxarvadlılıq haqqında danışmasına belə icazə vermir. Hətta zarafat olsa belə. Bu sevimli, sadə insan dərhal onun üçün pis, yırtıcı bir heyvana çevrilir! Kişi ciddiliyini və sərtliyini göstərməyə öyrəşməyən bu insan, təhlükəsizliyə üstünlük verməyə məcburdur, əks halda onun üçün nə şam yeməyi olacaq, nə də yatmağa yeri! Üstəlik də, bu yazıq, arvadının olmadığı yerdə belə çoxarvadlılığın adını çəkə bilmir, sanki o, yanında olmayanda belə, ondan qorxur! Amma bəziləri daha da irəli gediblər, özlərinin çoxarvadlılığı tətbiq etməmələri ilə, məhdudlaşmırlar. Onlar bunu, bizim dövrümüzdəki kəniz mövzusuna bənzər qeyri-real bir şey hesab etməyə başlayırlar. Onlar, buna təşviq etmirlər, çoxarvadlılıqdan danışmırlar və bu barədə xəyal belə qurmurlar.

8. Məsuliyyətdən qaçmaq.

Məsuliyyətdən qaçmağa tələsən, zəif insanlar çoxdurlar. Onların köməyinə ehtiyacı olan, zəif insanların qayğısına qalmaq istəmirlər.

# ÇOXARVADLILIĞI KİM QADAĞAN EDİR?

Məşhur Fələstinli mütəfəkkir, Mustafa əs-Sibai deyib ki: "Çoxarvadlılığı qadağan edən hər kəsi, iki qrupa bölmək olar. Birincilər - bunu yaxşı niyyətlə edirlər. Onlar, Qərbdən gələn, hücumları görəndə, düşünürlər ki, bununla onlar, İslamı, bəyənmədikləri şeylərdən "təmizləyə" bilərlər. Lakin ikincilər isə - bunu pis niyyətlə edirlər. Onların məqsədləri, müsəlmanları, bu yalançı şüarlarla aldatmaq, peyğəmbər ﷺ və onun səhabələrinin əməllərində, onları şübhəyə salmaqdır ki, guya İslam ümməti, uzun illərdir ki, çoxarvadlılıq haqqında, bu nəcib ayələri anlamırdı".

Ona görə də, biz aldanmamalıyıq və onların, dinimizə və çoxarvadlılığın qanuniliyinə şübhə etmələrinə imkan verməməliyik. Xüsusən də, bu işdə, bu qədər hikmət haqqında öyrəndikdən sonra. Qoy onlar, hürən itə bənzəsinlər, amma karvan yenə də keçib gedir. Onlar, dörd ilə məhdudlaşmağı qadağan edirlər, özləri üçün isə, yüzlərlə rəfiqə və məşuqəni halal edirlər, harama girirlər, üstəlik, qanunvericilik məclislərində, Allahın icazə verdiyini haram edir, şəriətdə haram buyurduqlarını isə, halal edirlər — homoseksuallığı və buna bənzərini!

Qərb mədəniyyətinin axınında sürünən, onların düşüncə və inanclarında itən, bu cəmiyyətin düşmənlərindən, öz ağalarının diktə etdiyi hər şeyi edən bir çoxları, onların hiyləgər planlarına uyanların hamısı, İslamın bu düzgün yol göstərişinə- çoxarvadlılığa son qoymaq istəyirlər.

Xoşbəxtlikdən, onlar əksər müsəlman ölkələrində, heçnə edə bilmirlər. Amma onlar, yenə də fərqli yol tutdular və bu, çoxarvadlılıq prinsiplərinə hüquqi məhdudiyyətlərin qoyulması idi. Guya ki, Allahu Təalə, bizim nə ilə qarşılaşacağımızı bilmirdi! Ailəni, qısqanclıqla qorumaq, qadını qorumaq bəhanəsi ilə, bu qanuni məhdudiyyətləri tətbiq etməyə, Allahın dinini "düzəltməyə" başladılar! Cəmiyyətimizin sadəlövh oğullarını aldadaraq, bu yalançı pərdə altında, müxtəlif qadağaları qanunilәşdirməyə başladılar. Lakin, Allah onların hiylə və yalanlarını ifşa edir, Allahın dinini insanlara izah edən, insanlara həqiqəti izah edən, alimlər vasitəsilə onların həqiqi üzünü göstərir.

Ah, kaş ki, onlar insanları günah və çirkin işlərdən çəkindirsələr, amma onlar zinaya icazə verdilər, pozğunluğa o dərəcədə yol verdilər ki, insan misallar çəksə, utanar. İcazə verilən şeyləri məhdudlaşdırdılar. Hakimin və ya iqtisadçılardan, ictimai xadimlərdən ibarət, müəyyən komitənin icazəsi kimi,

şərtlərlə və ya kəskin ehtiyacla icazəli olmasını şərtləndirməklə, çoxarvadlılığı tamamilə qadağan etdilər. Bütün bunlar, şəriətə və ağla ziddir.

Və bu məhdudiyyətlərin cavabı, aşağıdakılar olacaq:

1. Ədalət — dini bir əmrdir və Allahu Təalə, evlənmək üçün hakimin icazəsi kimi şərt qoymamışdır. Allahın qoymadığı bir şərti necə qoymaq olar?! Uca Allah buyurur: **“Onlar cahiliyyə (dövrünün) hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün, Allahdan daha yaxşı hökm verən kim ola bilər?”** (Maidə surəsi 50-ci ayə)

2. İnsanın, gələcəkdə öz arvadlarına qarşı ədalətli olub-olmamasını heç kim bilmir. Nə hakim, nə də başqası bilmir. Bu, yalnız evləndikdən sonra məlum olacaq, ondan əvvəl deyil.

3. Belə bir məhdudiyyət bidətdir və peyğəmbər ﷺ buyurmuşdur: *“Bizim əmrimiz olmayan bir işi görən şəxs, rədd ediləcək”* (Buxari və Muslim).

4. Ayələr, zövcələr arasında ədaləti həyata keçirmək məsuliyyətini, hər bir insanın və onun vicdanının üzərinə qoymuş, hakim kimi qərar verənin yox. Və o kəs ki, bir neçə qadını alıb, onlara qarşı ədalət göstərə bilməsə, bu günahın şiddəti artıq ona kifayət edər. Və sonra, bəlkə də, evləndikdən sonra, o düzələcək, yaxşılığa doğru dəyişəcək və məsuliyyət hissi ona qayıdacaq və bundan sonra, Allah onu düz yola yönəldər.

5. Belə məhdudiyyətlərin gətirib, çıxardığı bəlalar arasında — vətəndaş və müvəqqəti nikahlar, gizli əlaqələr və zina var. Bütün bunlar, bu çirkin qadağaların nəticəsidir.

Bir ərin, birinci arvadına verdiyi zərəri, ondan azad olub, başqası ilə evlənmək istəməsini də, bura əlavə edə bilərik. Ola bilsin ki, onun bədənindəki və ya xarakterindəki bəzi qüsurlara görə. Həmçinin bu məhdudiyyətlər ər-arvad arasında fikir ayrılıqlarına və mübahisələrə səbəb ola bilər, bu da evin dağılmasına səbəb ola bilər. Yuxarıda qeyd etdiyimiz kimi, boşanmalar artacaq.

6. İkinci arvad, ərinin vəziyyətini bilir, könüllü olaraq, onunla evlənərkən. Birinci arvad, ərinin ikinci ilə evləndiyini bilir. Və əgər o, ikinci arvadına meyl edərsə, arvadının ondan boşanma tələb etmək hüququ vardır, həmçinin əri onun hüquqlarını pozaraq ona zərər vurarsa, boşanma tələb etmək hüququna malikdir.

7. Ədalətsizliyin yeganə dərmanı, müsəlmanların öz dinlərinə uyğun yaşamağa başlamalarıdır.

O ki, qaldı bu məsələdə qərar çıxarmaq üçün, işlərini hakimə verənə, o özü də bundan əziyyət çəkə bilər, niyə? Çünki insanı çoxarvadlılığa, şəxsən özü ilə bağlı məsələlər sövq edir.

Yəni şəxsi bir şey. Yaxud aşkarlanması onun üçün zərərli ola biləcək səbəblər. O adam, bu məsələlərdən utana bilər. Yaxud bəlkə də, onun özünün başa düşə bilmədiyi bəzi mücərrəd səbəblərdilər. Və bu səbəblərin aşkarlanması, onun həyat yoldaşı ilə münasibətlərini korlaya bilər.

8. Bəzi ölkələrdə, insanın maddi vəziyyəti yoxlanılır. Amma bu da düzgün deyil. Axı Allah, çoxlarının üzünə, evləndiklərindən sonra, bərəkət qapılarını açır, bunu hamımız görürük. Bir insanın birinci, ikinci, üçüncü, dördüncü ilə evlənməsinin fərqi yoxdur. Və bir nəfərin də, Allahın ona verdiyi ruzisinin evləndikdən sonra, övladı və ya bir neçə övladı olduqdan sonra, yox olması barədə heç bir məlumat yoxdur. Çünki, hər kəsin qayğısına qalan, yalnız Allahdır və Onun bu işdə şəriki yoxdur. Buna görə də, bu yoxlamalar üçün bir səbəb deyil, əksinə, bu vəziyyətin araşdırılması, Allahu Təaləya layiqincə təvəkkül etməyimizə zidd ola bilər.

9. Əgər belə məhdudiyyətlər qoyularsa (yəni ikinci arvadla evlənmək üçün, məsələn, icazə almaq üçün hakimə müraciət etməlisiniz), bu iş, şəriətə bənzədiləcək, sanki Allah, yalnız hakimin icazəsi və ya buna bənzər bir şəxs izn verdikdən sonra, evlənməyə icazə verir. Amma əslində hakimin şəriətdə heç nəyi dəyişmək icazəsi yoxdur, ona yalnız şəriətə uyğun qərarlar vermək əmr olunur. Əks halda o adam, Allahın nazil etdiyinə görə hökm etməyən bir şəxs kimi olacaq. Uca Allah buyurur: **“Onların aralarında, Allahın (sənə) nazil etdiyi (Kitabla) hökm ver və onların istəklərinə tabe olma. Onlardan ehtiyat et ki, Allahın sənə nazil etdiyi (hökmlərin), bəzisindən səni sapdırmasınlar. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə, müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqlərdir”** (Maidə surəsi 49-cu ayə)

10. Bəziləri çoxarvadlılığı - son çarə olaraq, icazəli etmək istəyirlər, onlar deyirlər: “Gəlin çoxarvadlılığa, zəruri tədbir kimi icazə verək, (sanki bunun əsası qadağadır), çünki məşhur qaydada deyildiyi kimi, “Təcili zərurət, haramı caiz edir”. Bəli, belə bir qayda var. Hətta bunun, bir növ zərurət olduğunu fərz etsək belə, hər bir zəruri ehtiyac əslində belə deyil və hər bir “kəskin zərurət” icazəli olmur. Bəziləri, bir çox icazəli olan şeyi haram ediblər, məsələn, bəzi

İslam ölkələrində gənclərin sağlamlığını qorumaq üçün “zəruri ehtiyac” adı altında və xəstəliklərin yayılmasından qorxaraq, fahişəxanalara və fahişəliyə icazə verdilər. Tunisdə, istehsalı artırmaq üçün “kəskin zərurət” adı altında, Ramazan orucunu dayandırmağa çağıran, qanun qəbul edildi və 1-dən çox qadınla evlənmək isə qadağan edildi. Və bu “cinayət”i, yəni çoxarvadlılıq “cinayətini” cəzalandıran qanunlar, fərmanlar verdilər!! Və əksinə, fahişəliyə qanun səviyyəsində icazə verdilər!

# ÇOXARVADLILIQ MƏSƏLƏSİNƏ, NİYƏ HÜCUMLAR OLUNUR?

1 - Bizi məcbur etmək istəyirlər ki, İslamın əsaslarına, peyğəmbərə şübhə edək, qəlbimizdə ona olan inamı zəiflətmək istəyirlər.

2 - Müsəlmanların sayını azaltmaq istəyirlər. Müsəlman cəmiyyətini, dünya arenasında zəiflətmək. Qustav Le Bon deyir ki: "Çoxarvadlılığı tətbiq etmək, xalqın qorunub saxlanması üçün zəruridir".

3 - Bizim bu ümmətə qarşı həsəd və nifrət.

Həqiqətən də, bir çox xristian təbliğatçıları və din düşmənləri, çoxarvadlılıq məsələsində İslamı və müsəlmanları eybəcərləşdirirlər. Bunu yalnız, ehtirasa və tələbatın ödənilməsinə aid edirlər və İslamı bunu qanuniləşdirməkdə günahlandırırlar. Amma, onların hər birinin, gizli bir-iki rəfiqəsi var.

Çoxarvadlılığı qanunvericilik səviyyəsində qadağan etməklə, bu təcrübəni özləri yaşayırlar, nikahdankənar cinsi əlaqəni, heç də cinayət hesab etmirlər. Lakin, bəzi xristianlar, istər kişi, istərsə də qadın, çoxarvadlılığın zəruriliyini dərk edərək, buna dəvət etməyə başlayıblar.  Öz çıxışlarında, qəzet məqalələrində, mühazirələrində və forumlarında, bunu qanun çərçivəsində nizama salınmasına və icazəli etmələrinə çağırırlar. Həmçinin, bu dinin düzgün və bütün dövrlərə uyğun olması ilə razılaşaraq, İslamın fəzilətini onun qanunlarını qəbul etməyə başladılar. Hər şeyi, ən yaxşı şəkildə əmr edən bir din. Həm də ki, İslam həm ümumi, həm də özəl, bütün problemlərin həllinə zəmanət verir.

Qustav Le Bon deyir ki: "Onların tətbiq etdikləri çoxarvadlılıq qaydası, Məhəmmədin gəlişindən əvvəl, keçmiş icmalar arasında məlum idi. Bu, farslar, yəhudilər arasında məlum idi və həmçinin ərəblər arasında da məlum idi. Və heç bir dinin, hətta güclü qüdrətə malik olsa belə, onların adət-ənənələrini, nizamlarını, əxlaqını dəyişməsi gücü çatmırdı. Yəni Quran dininin gətirdiyi şeyi ləğv etməyə gücü çatmırdı. Çünkü bu, iqlim şəraiti ilə bağlı zərurətdir, onların yaşadıqları Şərq mentalitetinin zərurəti".

# ÇOXARVADLILIQ ƏTRAFINDA, MÜASİR MİFLƏR

Birinci mif:

Çoxarvadlılıq, qadınlara zərər verir. Əgər başqası, onun ərini sevsə, bu qadına əziyyət verər, ona görə də, o biri arvada "dərra" deyirlər, yəni zərər verən, qadınlar isə rəqibləri sevməzlər. İkinci arvad alan kişinin, mərhəməti yoxdur, zalımdır, qadının haqqını tapdalayır, öz ehtiraslarını razı salmaq üçün, onun şərəfini təhqir edir.

Bunun cavabı budur:

Allah, bütün bunları bilirdi, yəni çoxarvadlılığın vəziyyəti haqqında. Və burda demək yerinə düşərdi ki, Allahu Təalə, Kamil Elm sahibidir. O, əvvəl olan hər şeyi, hal hazırda olanı və gələcəkdə olacaq hər şeyi bilir. Bundan başqa, O, olmayan hər şeyi bilir! Üstəlik, həmin olmayan, əgər olsaydı, necə olardı, onu da Allah bilir! Yəni, məsələn, iki günəş olsaydı, nə olacağını heç kim bilmir. Amma Allah bilir! Və eyni zamanda, Uca və Böyük Allah, sənə qarşı ən mərhəmətlidir, ey əziz qadın!

Yəni, çoxarvadlılığı bərqərar edən Allah, sizə qarşı özünüzdən daha mərhəmətlidir və həyat yoldaşınızdan daha mərhəmətlidir və əgər O, çoxarvadlılığa icazə veribsə, deməli, O, bunu yalnız böyük faydasına görə edib. O, pis şeylərin qapısını bağlamaq və həmçinin yer üzündə yayılmış, pislikləri azaltmaq üçün, çoxarvadlılığı bərqərar etdi.

İkincisi: Şəriət, bütün insanların vəziyyətini düşünür.

Və bəzən, bir fərdin cəzalandırılması, bütün cəmiyyətə xeyir verir.

Üçüncüsü: Ey bacım, sənə kim dedi ki, bu sənin üçün pisdir? Hansı şeytan bunu beyninizə saldı?

Bəlkə də bu, həm bu dünyada, həm də axirətdə, sənin üçün, böyük bir yaxşılıqdır, xeyirdir. Allah buyurur: **"Ola bilsin ki, sevmədiyiniz bir şey, sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə (bunu) bilmirsiniz".** (Bəqərə surəsi 216-cı ayə)

Və hədisdə, peyğəmbər ﷺ buyurur: "*Möminin məqamı, necə də heyrətamizdir! Həqiqətən, onun hər bir halı onun üçün xeyirlidir və bu, mömindən başqa, heç kimə verilmir*". (Muslim)

Dördüncüsü: Başqa arvad alan kəsi, mərhəmətsiz olmaqda ittiham etmək, bu şəxsin özündən əvvəl, Allah Rəsulu ﷺ və onun səhabələrini (Allah onlardan razı olsun), saleh insanları alçaldıb, təhqir etməkdir. Allahu Təalə peyğəmbərini belə vəsf etmişdir: **"Sizə özünüzdən, elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz, ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir".** (Tövbə surəsi 128-ci ayə)

Beşincisi: Həqiqətən, bir neçə qadınla, evlənməyə icazə verən İslam, onlara qarşı ədalətli olmağı əmr etmişdir. Ər, bəzi vəzifələrində səhlənkarlıq edərsə, qadın tək arvad olsa belə, ondan haqqını tələb edə bilər. Axı əri onun haqqını pozur!

Altıncısı: Kişi ürəyində, eyni anda, bir neçə insana məhəbbəti yerləşdirə bilər, necə ki, sən əziz bacım, bütün övladlarına sevgini, ürəyində yerləşdirə bilirsən. Hətta çox vaxt, uşaqlarına olan sevgini, ərindən daha çox üstün tutursan. Yəni uşaqlarını, həyat yoldaşından çox sevirsən, amma o, çox vaxt onları səndən üstün tutmur.

Yeddincisi: Qadın ərinin ölümü ilə, müsibətə uğraya bilər. O, işə getməyə məcbur olar. Bu zaman, ona nələr olmur, nə cür peşmançılıqlara səbəb olur? O, kor-peşman olur, o ağrını yaşamadan, heç kimin başa düşməyəcəyi əzabla, bu vəziyyətdə qalır! Buna səbəb isə sənsən, ey qadın və sənin kimi çoxarvadlılığı rədd edənlərdirlər. Bil ki, Allah səni imtahana çəkir və bil ki, dul və yaşlı qadınlardan, Allahın rəhmətini çəkən sənsən.

Səkkizincisi: Bəzi kişilər tərəfindən, gələn ədalətsizliyin göstəricisi - əzəmətli şəriətə əməl etməsində, müəyyən bir şəxsin səhvi və nöqsanıdır. Eyni zamanda, şəriət ədalətsizliyi qadağan edir və bunu şərt olaraq qoyur. Bəzən baş verən, bəzi tək-tük hallara görə, bunu qadağan etsək, bu düzgün olmaz və müdrik olmaz. Bir çox insana fayda verəni, qadağan etsək, düzgün olmaz! Və buna görə, də belə şeylər olarsa, o zaman qadının məhkəməyə şikayət etmək hüququ var ki, hakim ona layiq olduğu haqqı versin. Əgər qadın, tək arvaddırsa və əri onun hüquqlarını pozursa, onda biz nikahı tamamilə qadağan edəkmi? Sadəcə ona görə ki, hansısa ər, öz arvadının haqqlarını pozurmu?!

Problemlər ər-arvad  arasında yaranır. Və biz dərman axtarmalı və bu problemlərin səbəbini müalicə etməliyik. Yəni bu problemin səbəblərini anlamaq lazımdır, əgər kişi arvadının, bütün hüquqlarını ödəmirsə, o zaman problem yaranır, istər kişinin bir arvadı olsun, istər bir neçə arvadı olsun. Çoxarvadlılığın nəticələri ilə bağlı, nə qədər fikir ayrılığı olsa da, bütün bunlar,

onun olmadığı zaman, mövcud olan problemlərlə müqayisə olunmaz. Və onlardan, yalnız bəziləri yuxarıda qeyd edilmişdir. Çünki tək bir problem, müəyyən insanlar və bütövlükdə cəmiyyət üçün yaranan, böyük çətinliklərlə müqayisə edilə bilməz.

Doqquzuncusu: Əziz qadın, sən öz həyat yoldaşının, Allahın ona izn verdiyi şəxslə evlənməsinə mane olmaq üçün, var gücünlə çalışdığın zaman və ya onun buna ehtiyac duyduğu bir vaxtda, ondan boşanma tələb etdiyin zaman – hər hansı bir səbəbdən, evlənməyə ehtiyac duyduğu zaman (o səbəb - istər şəxsən onunla bağlı olsun, istərsə də evlənmək istədiyi yazıq, fağır qadınla bağlı olsun), o zaman nə olur?

O olur ki, sən, Allahın rəhmətini ondan uzaqlaşdırmaq istəyirsən və ona və ya onların hər ikisinə qarşı düşmənçilik və qəzəb göstərmək istəyirsən, Peyğəmbər ﷺ isə buyurur: *"Heç kəs, özünə istədiyini qardaşı üçün istəməyincə iman gətirməz".* (Buxari və Muslim). Bəs onda mərhəməti az olan kəs kimdir?!

**<u>İkinci mif:</u>**

Birdən çox qadınla evlənmək, eyni ailə üzvləri arasında, mübahisə və nifaq salır, evlərdə düşmənçiliyə və onların dağılmasına səbəb olur və həmçinin uşaqların avaraçılıq etməsinə və bir-biri ilə mübahisə etmələrinə gətirib çıxarır.

**Cavab:** birincisi, çoxarvadlılığın mübahisələrə, düşmənçiliyə səbəb olması - onu bəyan edən şəxsin başında baş verən uydurmadır.

İkincisi, bütün ailələrdə fikir ayrılıqları, müxtəlif mübahisələr baş verir, yəni mütləq çoxarvadlılığa görə deyil.

Bu hadisənin bir çox başqa səbəbləri var. Amma bu səbəblərdən ən mühümü, dinin azalmasıdır. Yəni insanlar, daha az dindar olurlar. Bunun sübutu isə, 60 faizə çatan boşanmalardırlar! Bu, çoxarvadlılığın nəticəsi deyil, çünki bir çox cəmiyyətlərdə çoxarvadlılığın faizi heç 1%-ə çatmır.

Üçüncüsü, çox vaxt eyni ailənin üzvləri, məsələn qardaşlar arasında mübahisə və fikir ayrılıqları, mirası və ya başqa bir şeyi bölüşdürməyə başlayanda yaranır. Qohumlar və ya eyni ailə üzvləri arasında, fikir ayrılığı problemi, bəzilərinin düşündüyü kimi, çoxarvadlılıq deyil.

Dördüncüsü, əgər avaralıq və ailənin dağılması problemi varsa, bunun dərmanı, bu qədər böyük faydaları olan, çoxarvadlılığın qadağan edilməsi və

tərk edilməsidirmi? O zaman gəlin, həyat yoldaşları və ya qardaşlar arasında problem olduğu üçün, evlilik həyatını tamamilə qadağan edək! Yoxsa insanlara, uşaq sahibi olmağı qadağan edəkmi? Bəlkə bunun çarəsini axtarıb, tapaq.

Əsasən ailədə mübahisələr, kişinin ədalətsiz münasibətindən, ədalətsizliyindən yaranır. Çünki o, dinin qanunlarını bilmir və bununla tərbiyə olunmayıb. Məşhur müsəlman mütəfəkkiri, Şeyx Məhəmməd Rəşid Ridanın dediyi kimi: “Məlumdur ki, hər hansı bir xəstəliyin dərmanı — səbəbini aradan qaldırmaqdır — evlilik problemlərinin səbəbi isə, insanların İslamın qanunlarından xəbərsiz olmasıdır və bütün bu problemlərin dərmanı, bu insanların hidayəti və onlara dinin öyrədilməsi olacaqdır”.

Beşincisi, çoxarvadlılığın geniş yayıldığı cəmiyyətlərdə, əsasən, çox möhkəm, mehriban ailələr olurlar. Onlar, bir-birlərinə kömək və qayğı göstərirlər, qarşılıqlı yardım üçün çalışırlar. Hətta müsəlman olmayan cəmiyyətlərdən və ya çoxarvadlılığın qanunla qadağan olunmadığı yerlərdə, onların həyatlarını, problemlərini soruşduqda, onlar belə cavab verirlər ki, onlar ən gözəl və ən xoşbəxt həyat yaşayırlar.

Altıncısı, Allaha və Rəsuluna ﷺ lənət oxuyan, düşmənlərimiz tərəfindən maliyyələşdirilən media, bütün səylərini insanları çoxarvadlılıqdan uzaqlaşdırmağa yönəldir. Çoxarvadlılığı bir növ ölüm, həddi aşmaq, çöküş, biabırçılıq, şərəfsizlik kimi təsvir edirlər. Onlar, o həddə çatdılar ki, Allah Rəsulu ﷺ ilə istehza etməyə başladılar.

**<u>Üçüncü mif:</u>**

Nə qədər çox insanlar evlənsələr, bir o qədər çox insanların sayı da artar, nəticədə hamıya yer çatmaz, iqtisadi çətinliklər yaranar.

Cavab: birincisi, Allah, Quranda buyurur ki: **“Şeytan, sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə, sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah (hər şeyi) Əhatə edəndir, Biləndir”.** (Bəqərə surəsi 268-ci ayə)

İkincisi, böyük nəslin olması — bu, şəriət zərurətidir və şəriətin bizi çağırdığı məqsədlərdən biridir və bu, iqtisadi çətinliklərin azalmasının, eləcə də işsizliyin azalmasının mühüm səbəblərindən biridir. Niyə? Çünki istehsalda artım, işçilər çox olanda başlayır. Amma bundan əlavə bu, hörmətin, gücün və qələbənin səbəbidir. “Demoqrafik partlayış” adlanan şeyə gəlincə, bu fikir,

düşmənlərimizin bizi, nəslimizi artırmaqdan çəkindirmək üçün, uydurduğu bir uydurmadır və biz, bu fikirləri düzgün öyrənmədən, anlamadan qəbul etmişik.

Üçüncüsü, əsrimizdə, müsəlmanların yoxsulluğunun və alçaldılmasının, onların sayının çoxalmasının nəticəsi olduğunu və nəsillərin artmasının, iqtisadiyyatın zəifləməsinə səbəb olduğunu söyləyən şəxsin, Şeyx ibn Useymindən (Allah ona rəhmət etsin), şəriət mövqeyini soruşduqda: Şeyx, Allah ona rəhmət etsin, belə cavab verdi: "Bu, böyük bir səhvdir, çünki Allah, istədiyinə ruzi verəndir və istədiyindən də kəsir. Səbəb isə, sakinlərin sayının artması deyil, çünki yer üzündə elə bir canlı yoxdur ki, Allah ona yaşamaq imkanı verməsin, lakin Allah, Öz hikmətinə görə bəxş edir və hikmətinə görə paylayır. Bu cür inanc sahiblərinə isə, tövsiyəm budur ki, bu batil inancları tərk etsinlər! Və onlar bilsinlər ki, yer üzündə nə qədər insan olursa olsun, Allah hamıya ruzi verəcək, lakin Allah öz kitabında belə buyurur: **"Əgər Allah, Öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, O Öz qullarından Xəbərdardır, Görəndir".** (Şura surəsi 27-ci ayə)

<u>Dördüncü mif:</u>

Bir çox qadınlar, təşviş içində düşünürlər ki, əri başqası ilə evləndikdən sonra, əri onu və uşaqlarını tərk edəcək və onun yeni həyat yoldaşından başqa, heç bir narahatlığı olmayacaq.

Cavab: Birincisi, bu fikrin reallıqda heç bir əsası yoxdur. Hətta əksinə, yeni evə girdiyini hiss edən və bu evdə özünü yad hiss edən şəxs - təzə arvaddır. Həmçinin, ər də hələ birinci arvadı qədər, ikincini özünə çox yaxın hiss etmir. Bu, adətən ilk vaxtlarda olur. Təbii ki, aralarındakı sevgi və qarşılıqlı məhəbbət artana qədər.

İkincisi, həqiqətən, ey müsəlman qadın, əgər sən Allahdan qorxsan, xeyirli aqibət ancaq sənin üçün olar, çünki xeyirli aqibət ancaq müttəqilərindir və Allah səninlə həlimliklə rəftar edər və kim Allahdan qorxsa, Allah ona hər vəziyyətdən çıxış yolu göstərər.

Üçüncüsü, bir şeyi çox istəyənlər, onu mütləq alacaqlar. Və əgər eşitmisənsə ki, bir qadın, əri başqası ilə evləndikdən sonra, ərindən boşandı və ya ər, əvvəlcə başqası ilə evləndi, sonra da birinci arvadını boşadı, deməli, əsas olaraq birinci arvadı buna səbəb olub. O, ya ərinin seçiminə etiraz etmək üçün, bir şey etməyə başlayıb, ya ondan boşanma tələb edib, ya da onunla evlənərək, Allahdan qorxmayıb və ona, həyatda problemlər və çətinliklər

yarananda səbr etmək əmr edildiyi kimi, səbr etməyib. Bu da, Allahın, onun ərinin qəlbini ondan almasına səbəb olaraq, onun üçün, bir cəza oldu.

Və əksər hallarda, ailə həyatını dağıdan qadındır və ərinin ondan uzaqlaşmasına səbəb olur. Bundan sonra o, Allahdan bir cəza olaraq özünə ər tapmaz.

**<u>Beşinci mif:</u>**

Bəziləri iddia edirlər ki, evlilik - insanı ibadətdən, elm almaqdan yayındırır.

Cavab: Bu fərziyyələrlə, insan dəfələrlə evlənən peyğəmbər və onun nəcib səhabələri ilə, ziddiyyət təşkil edir, onlar isə bizim üçün örnəkdirlər və bunu yalnız bəzi sufilər iddia edirlər. Allah Rəsulu ﷺ onların ağızlarını bağlayaraq belə cavab vermişdir: *"Kim mənim sünnəmi istəməzsə, məndən deyildir".*

Ey bunu bəyan edən, həqiqətənmi sən, peyğəmbərdən ﷺ, səhabələrdən, saleh xəlifələrdən və İslam alimlərindən daha çox dəvət və elmlə məşğulsan?! Bir neçə arvadı olanlar üçün, Allaha tərəf, onun dininə dəvət etmək imkanı daha böyükdür desək, heç də şişirtmək olmayacaq. O kişiyə, daha çox kömək olunur, nəinki tək arvadı olana, çünki tək arvad, onun vaxtını alır və onu yayındırır.

Bu həmçinin, peyğəmbərə ﷺ və onun yoluna qarşı təkəbbür əlamətidir, çünki o, birdən çox qadınla evli idi. Sanki bu, ona, risaləti çatdırmağa və dini bizə çatdırmağa mane olurdu. Əksinə, evlilik, dinin bir hissəsidir və ona çağırışdır. Allah, evliliyi dinin yarısı etdi. Bunun, dinə və Allaha dəvətə zidd olduğunu necə demək olar?!

Ərəb tarixçisi, fiqh və hədis sahəsində mütəxəssis, İbn əl-Cövzi deyib ki: "Ola bilsin ki, cinsi əlaqənin nəticəsi, İmam Şafii və ya Əhməd bin Hənbəl kimi övlad olsun ki, buda valideynlər üçün, min il ibadət etməkdən daha xeyirli olar" (ən-Nəzair)

Bəkr Abdullah Əbu Zeyd, çox görkəmli alimlər və şeyxlər olan, bir çox hədis rəvayətçilərindən bəhs edərək demişdir: "Məgər onların arasında evli olmayan varmı? Həyatlarında, onları harasa getməyə, yerdən-yerə köçməyə, başqa elm adamları ilə yaxından ünsiyyətə məcbur edən, bir çox səbəblər olmasına baxmayaraq, onun elm almasında evlilik ona mane idimi? Yoxsa, əksinə, bu onların elm əldə etmələrinə və bu bilikləri başqalarına ötürməsinə kömək etmək idi?

Və hər hansısa bir alimin, evli olmama əməli, sizi şübhəyə salmasın, axı onun hərəkətləri, əslən özlüyündə dini dəlil deyil, çünki dəlil Quran və Sünnədədir. Məsələn, əgər bilsək ki, İbn Həzm və Qəzi İyyad, həcc ziyarəti etməyiblər və həccin İslamın sütunu olmasına baxmayaraq, onların elmi həccdən üstün tutduqlarını necə deyə bilərik?! Həcc etmək imkanı olan və onu yerinə yetirməyən şəxs haqqında deyə bilərikmi ki, bu, ona icazəlidir?! Onların hər birinin, özünəməxsus üzürlü səbəbi var idi. Biri çox kasıb idi, biri təhlükəsizlikdə deyildi, üçüncüdə başqa səbəb var idi. Sadə, elimsiz insanlar arasında da subaylar var. Məgər biz, bundan nəticə çıxarıb, deməliyikmi ki, onlar cahilliklərini evlilikdən üstün tutublar?!

## Altıncı mif:

Bəziləri deyirlər ki, bir arvad, çox böyük məsuliyyət və problemdir, əgər başqası ilə evlənirsənsə, o zaman bu problemin üzərinə əlavə bir problemdir, bəlanın üzərinə əlavə bir bəladır.

Cavab: bu acizlərə demək lazımdır ki, məsələni niyə elə təsvir edirsiz ki, bu bir növ problem, bəla, çətinlik və ya dözülməz böyük bir məsuliyyətdir?! Kişi, öz cəsarətinin kamilliyindədir, ona qarşı belə sözlər söyləmək ona yaraşmır və o, belə aciz olmamalıdır! Allah ona ağıl verdiyi zaman, onu qadınlardan qat-qat üstün etdi. Ona hikmət, himayədarlıq, rəhbərlik verdi, bu himayədarlıqla o, cəmiyyəti idarə edir, orduya nəzarət edir, çoxlu böyük öhdəliklər və böyük vəzifələr daşıyır!

Bəs o, ümməti necə idarə etmək istəyir?! Nəcə tərbiyə etmək istəyir, necə insanların şəriətlə hökm verməsini istəyir?! Özü, bir neçə qadın və uşaq olan bir evə belə, başçılıq edə bilməyəcəyi halda, ümmətin öz vəzifələri yerinə yetirməsini necə istəyir?!

İkincisi, Allah, evliliyi əksər hallarda hüzur və mərhəmət kimi təsvir etmişdir, yəni rəhmət üzərində rəhmət, hüzur üzərində hüzurdur, bəzilərinin təsvir etdiyi kimi, bəla və problem üzərində problem deyil.

## Yeddinci mif:

Deyirlər ki, əvvəllər, asan və rahat idi. Bir kişi, bir neçə qadınla evlənib, onları öz çadırında saxlaya bilərdi və onlara yemək olaraq, bir az süd, su, çörək kifayət edirdi, amma indi vəziyyət tamam dəyişib, ehtiyaclar artıb.

Cavab: əgər həyat dəyişibsə, yaşayış vasitələri də dəyişib. Yəni, bu ehtiyacların ödənilməsi yolları da dəyişib, bu o deməkdir ki, hər şey kişinin

maddi imkanları ilə bağlıdır. Əgər əvvəllər, insanlar süd, su, çörək yeyirdilərsə, onda buna nail olmağın da öz imkanları var idi. Allah quranda buyurur: **“Var-dövlət sahibi, öz varına görə xərcləsin. İmkanı az olan isə, Allahın ona verdiyindən xərcləsin”.** (Talaq surəsi 7-ci ayə)

Və sonra, heç bir fərq yoxdur, bu həm ikinci, üçüncü, dördüncü arvadla evlənməyə, həm də birinci ilə evlənməyə aiddir. Bu evliliklər arasında heç bir fərq yoxdur.

Çünkü, bəziləri sərbəst şəkildə, ikinci və üçüncü arvad ala bilər, bəzilərinin isə, hətta bir arvad almağa imkanı yoxdur. Deməli, bu kişinin imkanına qayıdır.

Və bu, harada və nə vaxt baş verməsindən asılı deyil. Sadəcə olaraq, bəzi insanların maddi imkanı var, bəzilərinin isə yox.

**Səkkizinci mif:**

Qadınlardan bəziləri deyirlər ki: “Niyə başqası ilə evlənirsən?” Əgər ona, bunun peyğəmbərin ﷺ sünnəsi olduğunu söyləsən, o deyəcək: “Məgər başqa, bütün sünnələri yerinə yetirmisənmi? Bu sünnədən başqa, sünnə qalmayıbmı?!” Və o qadın, yaxşı dəlil irəli sürdüyünü düşünür.

Cavab: Biz, sünnəni qəlbimizdə ucaltmalıyıq. Dindən, yalnız nəfsimizə uyğun olanı götürüb, nəfsimizə zidd olanı tərk etmək, bizə yaraşmaz. Bütün bunlar, Allahdan gəldi. Və biz bir hissəyə inanıb, digərinə inanmayanlardan olmamalıyıq. Biz, Quranı istəklərimizə görə, hissələrə bölmürük. Kim, Sünnəni yerinə yetirmək istəyirsə, əgər onun məqsədi budursa, xüsusən də xoşuna gəlirsə, biz ona mane olmayacağıq, əksinə, peyğəmbərin ﷺ etdiyi hər şeyi, etməyə təşviq etdiyimiz kimi, biz o adama, bunu etmək üçün cəsarət verməliyik. Həmçinin, biz ona xatırladırıq ki, dindən yalnız bəyəndiyimizi götürmək lazım deyil. Axı biz, bəzən şəriətin haram buyurduğu, amma bizim xoşumuza gələn bir şeyi edə bilərik, lakin xoşumuza gəlsə də belə, onu tərk etməliyik.

Bundan əlavə, elə şeylər var ki, Allah buna görə, böyük mükafat vəd edir. Məsələn, insanın etmək istədiyi, insanların unutduğu, əməl etmədiyi bir sünnə. O zaman insan, təkcə bu sünnəni yerinə yetirdiyinə görə deyil, həm də onu diriltdiyinə görə, mükafat alacaq, lakin bu, hələ hamısı deyil! İnsan, onun özündən nümunə götürənlərin qazandıqları savablara görə, mükafatını alacaq! Səxavətli olan Allah, o adama, özündən sonra sünnə əməli edənlərin hamısına görə, mükafat vəd edir və onların isə mükafatı heç az olmaz! Allahın

Rəsulu ﷺ buyurdu: *"Kim, məndən sonra insanların tərk etdiyi, mənim sünnəmi diriltdərsə, bu sünnəni yerinə yetirənlərin savabına bənzər, bir savab qazanar, bu da onların savabından heçnə azaltmaz!"* (İbn Macə, ət-Tirmizi)

<u>Doqquzuncu mif:</u>

Niyə, kişiyə bir neçə qadınla evlənməyə icazə verildiyi kimi, qadına da bir neçə ərinin olmasına icazə vermirik?

Cavab: Allahu Təalənın, hər şeyi öz yerinə qoyduğu şeylərin yerini dəyişmək, biz müsəlmanlara yaraşmaz. Və bizim, Ondan qabağa getməyimiz yaraşmaz.

**"Ey iman gətirənlər! (Heç bir şeydə) Allahı və Onun Elçisini qabaqlamayın. Allahdan qorxun! Həqiqətən, Allah Eşidəndir, Biləndir".** (Hucurat surəsi 1-ci ayə)

İkincisi, çoxarvadlılıqda bərabərlik, əslində mümkün deyil. Çünkü, hətta ən azğın ölkələr və qadın-kişi hüquqlarının bərabər olmasına çağıranlar belə bu cəfəngiyyata (qadının bir neçə ərinin olmasına) yol vermir və bu haqda heç danışmırlar. Qadın, öz təbiətinə görə, eyni anda iki kişidən hamilə qala bilməz, eyni anda iki hamiləliyi ola bilməz və o, yalnız ildə bir dəfə hamilə qala bilər. Kişi isə əksinə, eyni anda bir neçə qadından bir neçə uşaq sahibi ola bilər. Biz buna, heyvanlarda da rast gəlirik ki, erkək tək olur, dişilər isə çox olurlar. Əksinə olduqda isə, problemlər baş verir və müxtəlif döyüşlər yaranır, erkəklər arasında döyüşlər olurlar, hətta o nöqtəyə gəlib çatır ki, erkəklər bir-birini məhv edirlər. Və üstəlik də, bir qadının çoxlu əri olanda, onun uşaqları kimin nəslindən olduğu aydın olmayacaq, atasının kim olduğunu anlamaq mümkün olmayacaq, onda uşağa kimin sahib olduğu, kimin məsul olduğu, mirası kimin alacağı, uşağın xərclərini kimin qarşılamalı olduğu aydın olmayacaq! Kişi şübhə edəcək ki, bu uşaqlar onundur yoxsa onun deyil. Uşaqlar və kişi, doğmalığı tam hiss etməyəcəklər, uşaqlar atalarını tanımayacaqlar. Onda da evin idarə olunması, ailə rəhbərliyi kişinin yerinə qadına keçəcək? Yoxsa bəlkə, yalnız kişi idarə edəcək, qalanlardan isə bu məsuliyyət düşəcək? Yoxsa hamısı birlikdə, evi idarə edəcəklər? Amma onda, müxtəlif toqquşmalar baş verəcək, aralarında düşmənlik yaranacaq və qadın eyni anda hamını razı sala biləcəkmi, hamının qayğısına qala biləcəkmi? O, bir evi belə idarə edə bilmir bir əri olanda, bir evə yaxşı baxa bilmir, bəs bir çox ehtiyacı olan bir neçə əri olsa nə olar? Hələ uşaqlar da var. O zaman, qalmış qızların sayı daha da artacaq, əxlaq daha da pozulacaq. Buna görə də, Allahu Təalə doğru buyurmuşdur: **"Onlar**

**cahiliyyə (dövrünün) hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün, Allahdan daha yaxşı hökm verən kim ola bilər?”** (Maidə surəsi 50-ci ayə)

Və sonra, sifilis, prostatit, SPİD kimi mövcud xəstəliklərdən əlavə, cəmiyyətin hələ rastlaşmadığı o qədər çox xəstəliklər artacaq. Məgər bu xəstəliklər, bir qadını, bir neçə kişinin istifadə etməsi ilə bağlı deyilmi? Və hələ psixoloji problemlər və psixi pozğunluqları demirik. Müsəlman ailəsində, mövcud olan, hüzur və firavanlıq burda haradadır? Bu, qadın üçün yorğunluq və əzabdır. Bəzən, kimsə ona zorla sahib olduqda, qadın bununla barışmalı olur. Bəs bir neçə kişi ona eyni anda sahib olmaq istəsə, o nə etməlidir? Üstəlik, artıq qeyd edildiyi kimi, fizioloji cəhətdən, kişi daha çox gücə malikdir.

Ona görə də, “çoxərlilik” haqqında iddia edən kəs, pis və murdar insanlardan olan, kafirdir, çünki bu fikir, şəriətə, ağıla və təbiətə ziddir.

Və bu, qadın və kişilərin hüquq və vəzifələrdə bərabər olduğunu iddia edənlərə qarşı, dəqiq dəlildir. Axı onlar, Allahın onun üçün yaratdığı, qadının təbiətini dəyişmək istəyirlər.

Ümumiləşdirsək, aydın olur ki, cəmiyyət, qadınlara çoxərliliyə icazə verməkdən, heç bir fayda əldə etməyəcək. Hətta daha çox, cəmiyyət üçün zərərli olar, amma şəriətin təklif etdiyi isə əksinə olaraq, qadına, ümmətə və bütövlükdə cəmiyyət üçün faydalı olar.

# ÇOXARVADLILIĞIN ƏVƏZİNİ TAPMAQ LAZIMDIR, BƏS O NƏDİR?

Çoxarvadlılığın, təbii zərurət olduğu bir vaxtda, bəziləri, birdən çox qadınla evlənməyə çalışırlar. Çalışırlar, amma bacarmırlar. Və hiyləgərliyə əl atmağa başlayırlar. Məsələn, bir çox qadının təbiətcə kişiyə ehtiyacı olmasından istifadə edərək, boşanmaq niyyəti ilə evlənirlər. Bir çoxları, məsələn müvəqqəti nikah, "vətəndaş" nikahı kimi, bəzi şeyləri, guya şəriətdə olduğunu deyərək, bəzəyib, dəyişdirməyə çalışırlar. Və biz, bu qadınların, o kəslərin ki, bu pisliyə düşüblər, çoxunun peşman olduğunu görürük. Onlar, fahişəliyə üz tutaraq, ailəsinə bəla, rüsvayçılıq, utanc gətirməklə, geri dönməz itkiyə təəssüflənirlər. Və heç kim, buna əhəmiyyət vermir və cəmiyyət də buna əhəmiyyət vermir!

# BU PROBLEMLƏRƏ DÜŞƏN BİRİ ÜÇÜN, NƏ LAZIMDIR. HƏMÇİNİN ÇOXARVADLILIQ HAQQINDA MƏSLƏHƏTLƏR

1-Bir qadına zərər vermək niyyəti ilə, onunla evlənmək caiz deyil.

2-Niyyətini düzgün etmək lazımdır ki, çoxarvadlılıq, yalnız ehtiraslarını təmin etmək üçün olmasın.

3-Ərin haqsızlıq göstərməsi, arvadın mütləq ondan üz döndərməsinə səbəb olur.

4-Bir neçə nəfərin, çoxarvadlılıq əməlində, səhvi üzündən şəriətə nifrət etmək, şəriəti onunla məhdudlaşdırmağa ehtiyac yoxdur. Bütün bunlar, bunu edən şəxsə aiddir.

Allah buyurur: **"Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət etdilər, O da onların əməllərini puça çıxartdı".** (Muhəmməd surəsi 9-cu ayə)

5-Allaha və axirət gününə iman gətirən qadının, çoxarvadlılıq səbəbi ilə, boşanma istəməsi caiz deyil. Çünki şəriət, onun ərinə, bunu icazəli edib! Qadının boşanma tələb etməsi üçün, icazəli səbəb bu deyil. Peyğəmbər ﷺ buyurur: *"Hansı qadın, səbəbsiz yerə ərindən boşanmaq istəsə, ona cənnətin qoxusu haram olar"* (Əhməd, Əbu Davud, İbn Hibban) və həmçinin Peyğəmbər ﷺ demişdir: *"boşanmaq istəyənlər münafiqdirlər"* (ət-Tirmizi).

Eyni şəkildə, əriniz sizinlə tək qalması üçün, onun digər arvadının boşanmasını istəmək lazım deyil. Yaxud evlilik söhbəti gedəndə, birinci arvadından boşanmağı şərt qoymaq olmaz.

Əbu Hureyrədən rəvayət olunur ki, Peyğəmbər ﷺ buyurdu: *"Qadın, tək qalmaq üçün, bacısının boşanmasını istəməməlidir, ona təqdir olunan, onun başına gələcəkdir".* (Buxari və Muslim)

Ərinin, ikinci arvadını boşamasını tələb edərək, bu dünyanı axirətdən üstün tutduğu üçün, hətta Allah da bunun əksini edə bilər, Allah onu elə imtahana çəkər ki, ərinin qəlbini ondan uzaqlaşdırar və oda onu boşayar. Axı bütün qəlblər, Uca və Rəhmanın iki barmağı arasındadır. O, qəlbləri istədiyi kimi döndərər.

Ey yazıq! Ərinin ürəyinin sahibi olduğunu düşünən! Heç bir vəziyyətdə, ondan üz döndərə bilməyəcəyini düşünən! Axı ər ölə bilər və qadın, ona dayaq olacaq, uşaqlarına baxacaq birini tapmayacaq, ağrı çəkəcək. Axı belə deyim var ki: "Quyuya tüpürmə, çünki suyunu içməli olacaqsan." Ola bilsin ki, Allah onu xəstəliklə imtahan etsin və əri başqası ilə evlənməsini özünə asanlaşdırmaq üçün, onu boşamağa məcbur olar, çünki qadınlar da öz növbəsində artıq evli olan adamın, evlilik təklifini rədd edirlər.

6- Xeyirə dəvət etməyənlərə, qadının qulaq asmaması, çox vacibdir. Yəni, onunla əri arasında, fitnə-fəsad yaradanlara. Çünki Peyğəmbər ﷺ buyurmuşdur: *"Kim qadını ərinə qarşı doldurarsa, bizdən deyildir"* (Əbu Davud).

7- Ola bilsin ki, bu evlilik, qadına xoşbəxtlik gətirər, amma o bunu ağlına belə gətirmir. Onun qədərinə (alın yazısına) nə yazıldığını bilmir, bəlkə də səbrinə görə, ona Cənnət və əbədi səadət nəsib olar və Allah, onun ölümündən sonra, övladlarını qoruyar. Və peyğəmbərin ﷺ hədisi kifayətdir ki, o belə demişdir: *"Möminin məqamı heyrətamizdir, həqiqətən hər bir vəziyyət, onun üçün xeyirlidir. Əgər ona hər hansı bir sevinc gəlsə, bunun üçün, Allaha şükür edər və bu, ona fayda verər və bu, onun üçün xeyirlidir, əgər başına bir müsibət gəlsə, səbr edər və buda onun üçün xeyirdir. Və bu vəziyyət yalnız möminlərə aiddir".* (Muslim)

8- "Çoxarvadlılığın zərəri" ifadəsini işlətmək olmaz. Bu mövzuda, yazanların çoxu, bundan istifadə edir.

Bu səhvdir. Çünkü çoxarvadlılıq, insanların uydurması deyil ki, ondaki səhvlər və ya doğru və yanlış şeylər haqqında danışılsın. Səhvlər, yalnız bəzən çoxarvadlılığın həyata keçməsi dövründə yaşanırlar. Bu o demək deyil ki, şəriət qanunlarının özündə səhvlər var.

9- Özünü və cinsiyyət üzvlərini, eləcə də ərinin nəfsini və cinsiyyət üzvlərini qoruyaraq, evli kişi ilə evlənməyə razı olan qadın, Allahın ona verdiyinə razı olar və o qadın, heç vaxt saleh kişinin evlilik təklifini, kişi evli olduğu üçün rədd etməz. Ola bilsin ki, o qadın, Allahın onu imtahan etdiyi kimi başqasını da imtahan edəcəyindən qorxaraq, bu teklifi qəbul etməz. Əgər özünə evlənməyə fürsət verməsə, qoca bir qarı kimi qocalar və ona bəla, peşmanlıq və məyusluq üz verər. Və ya ola bilər ki, o qadın buna görə korlanar. Bu, peyğəmbərin ﷺ: *"Əgər dinindən və əxlaqından razı olduğunuz, bir kəs sizin yanınıza gəlsə, onu*

*evləndirin, bunu etməsəniz, yer üzündə fitnə yayılar" hədisinə zidd olanların başına gəlir".* ("Silsilə hədis səhihə" Albani)

Əgər o qadın, saleh, evli kişidən evlilik təklifini qəbul edərsə, bu əməl, onun ağıllı olmasının dəlili, onun dininin salamat olduğuna dəlil, həmçinin ümmətimizin ilk saleh insanlarının, həm qadınların, həm də kişilərin sünnəsinə yaxşı bağlı olduğuna dəlildir.

Və buna görə, onu qınamağa və bəzilərinin təsvir etdiyi kimi, onu "kişi oğrusu" kimi qələmə vermək lazım deyil.

10-Birinci, ikinci, üçüncü və dördüncü ilə evlənmək üçün başqa bir şərt yoxdur, ancaq insan, hüquq baxımından bərabər, yəni ədalətli olmalıdır, onların hər birinin, öz evi olmalı və onun bütün həyat yoldaşlarını dolandırmaq üçün, imkanı olmalıdır. O ki, qaldı kişinin guya ailəsini dolandırmaq üçün, müəyyən müddətə - bir, iki, üç il üçün vəsaiti olmalıdır, bunu dini anlamayan cahillər deyirlər və şəriətdə belə bir şərt yoxdur. Yemək vasitələrini göndərən və hər kəsə ruzini verən Allahdır.

Qızın, ata evində olmasının və ya ərinin evində olmasının, fərqi yoxdur. Onun ruzisi, artıq təyin olunub. Hər uşaq, doğulur və onun öz ruzisi isə, artıq mövcud olur və o adam, öz ruzisini tələb edir, istəyir, amma bu ona çoxdan təyin olunub.

11 - "Niyə, başqa qadınla evləndin?" sualını vermək, düzgün deyil, çünki bəzən insan, bədən üzvlərini, günahlardan qorumaq üçün belə edir, axı kişiyə bir qadın kifayət etmir. Və bunlar, insanların utandığı şeylərdirlər və heç kim bu haqda danışmağı sevmir. Peyğəmbərin ﷺ hədisində, isə deyilir: *"İnsanda, İslamın gözəl təzahürlərindən biri də ona aid olmayan bir şeyi tərk etməsidir"* (ət-Tirmizi, İbn Macə, Əhməd)

12 - Əgər ər ədalətsiz rəftar etmirsə, ərinə və ya onun ikinci arvadına qarşı dua etmək olmaz. Əgər o, qadın ərinə qarşı dua etsə, o zaman haqsızlıq edən, icazə verilən hədləri, şəriət hüdudlarını aşan qadın olar.

13 - Birdən çox arvadla evlənən kişinin, Allahdan qorxması lazımdır, o adam zülm etməməli, heç bir arvadına tam meyllə əyilməməlidir, aralarında elə bölgü etməlidir ki, onlardan birini daha çox sevdiyini hiss etməsinlər.

14 - Qadının, öz ərinin malını tez xərcləməyə çalışması və ya hiyləgərlik göstərərək, çoxlu borc alması ki, əri ikinci ilə evlənə bilməsin, caiz deyil. Allah quranda buyurur: **"Əməlisaleh qadınlar, Allaha itaət edər və qorunması lazım**

**gələn şeyləri, Allahın himayəsi sayəsində qoruyub, saxlayarlar”.** (Nisa surəsi 34-cü ayə).

Peyğəmbər ﷺ, saleh qadını, belə təsvir etmişdir ki, o qadın, özünü (namusunu) və malını əri üçün qoruyur. Onun, öz ərinin malına qənaətcil münasibəti isə, onun namusunu qorumaqdan az əhəmiyyət kəsb etmir.

# NƏSİHƏT

Bütövlükdə, bütün müsəlmanların, bütün dəvətçilərin, xüsusən də medianın imkan daxilində, çoxarvadlılığın fayda və bəhrələrini qeyd etmələri və bu məsələdə bəzi nadir, mənfi istisnaları qeyd etməklə, küfrün carçısına çevrilməmələri lazımdır ki, insanlar, ondan çəkinməsinlər. Onlara izah etmək lazımdır ki, bunu edənlərin bəzi fərdi halları, fərdi səhvləri var. Birdən çox arvadla evlənən, hər kəsə isə başa salmaq lazımdır ki, Rəbbindən qorxsun və Ona asi olmasın və Allahın qoyduğu nizamdan kənara çıxmasın və Rəhmanın yolundan insanların üz döndərməsinə səbəb olmasın.

Sonra, Allaha dəvət edənlərə ki, çoxarvadlılığı ilk tətbiq edənlər, onlar olsunlar. İnsanlara, gözəl nümunə olsunlar ki, insanlar da buna can atsınlar.

Bundan əlavə, çox arvadı olan, saleh sələflərimizin tarixi əhvalatlarını, daha tez-tez xatırlamaq lazımdır ki, insanlar onlara tabe olsunlar və bu böyük qorxu onlardan getsin.

Dəvətçi və salehlər, gərək insanları Allaha doğru və düzgün təvəkkül etməyə öyrətsinlər, tərbiyə etsinlər. Onlara, şəriətin müxtəlif müddəalarını izah etmək lazımdır, dolanmaq vasitələri ilə bağlı, Allahın hökmlərini və bu barədə şəkk-şübhələrin, imanımızı korladığını, ruzi verən tək olan Allaha, imanımızı korladığını izah etmək lazımdır. Çoxarvadlılığın yayılması, problemləri azaldır.

# RƏSULULLAH ﷺ VƏ ÇOXARVADLILIQ

Çoxarvadlılıq, keçmiş elçilər arasında məlum idi.

Peyğəmbərin ﷺ bir neçə qadınla evlənməsində, böyük hikməti var. Bildiyiniz kimi, o şəxs, bir neçə arvadı olan peyğəmbərlərin ilki deyildi, peyğəmbərlər isə Allahın bizə tabe olmağı əmr etdiyi kimsələrdirlər. Bunda siyasi və ictimai müdriklik var idi.

Yəni, şəriətin öyrənilməsində və bərqərar olmasında hikmət.

Allah, istədiyi hər şeyi, rəsuluna etməyə icazə verəndir - və Peyğəmbər başqa insanlar kimi deyil. Allah, ona elə bir güc verdi ki, onu heç kimə verməyib. Bu qədər qadınla evlənməsi, onun peyğəmbərliyinə, qadınlara mərhəmət göstərməsinə, insanlara ədalət və gözəl rəftar öyrətməsinə, həmçinin özündən əvvəlki peyğəmbərlərə tabe olmasına dəlalət edir.

Onun, qadınlara olan sevgisi - ehtirasının tələbi deyildi. Allah, Öz elçisi üçün yalnız ən yaxşısını, ən mükəmməlini seçər və bu, qüsur deyil, kamillikdir.

Bu, peyğəmbərin yolu ilə gedən, hər kəsə aiddir, bu əməl, ehtirasın tələbi deyil, Allahın, bəndələrinə verdiyi, təbii sağlam ehtiyacdır.

O kəslər ki, peyğəmbərə böhtan atırlar, bununla onlar ondan əvvəlki peyğəmbərlərə də böhtan atırlar. Bu isə, onlarda heç bir mənfi və ya pis keyfiyyət deyildi, yox, əksinə, bu, onların kamilliyindən və böyüklüyündən idi.

MÜNDƏRİCAT

GİRİŞ ... 3
PEYĞƏMBƏRƏ ﷺ QARŞI ZİDD OLAN ADAMIN BƏDBƏXTLİYİ ... 9
İSLAMDA ÇOXARVADLILIĞIN QANUNİLİYİ ... 11
ÇOXARVADLILIĞIN HÖKMÜ ... 14
ARVADLARIN HAMISI İLƏ, ƏDALƏTLİ OLMAQ VƏ YALNIZ BİRİNƏ MEYİLLİ OLMAMAQ — ÇOXARVADLILIĞIN ŞƏRTİDİR ... 15
ÇOXARVADLILIQ, HANSI HALLARDA VACİB OLA BİLƏR ... 17
ÇOXARVADLILIQDA OLAN HİKMƏT ... 19
ÇOXARVADLILIĞA TƏŞVİQ ETMƏYİN ƏHƏMİYYƏTİ ... 25
ÇOXARVADLILIQ, KİŞİ ÜÇÜN FAYDALI VƏ XEYİRDİRMİ? ... 29
ÇOXARVADLILIĞIN, QADINA FAYDASI VƏ XEYİRİ VARMI? ... 31
ÇOXARVADLILIĞA QARŞI OLAN QADAĞANIN ZƏRƏRİ ... 34
QEYRİ-MÜSƏLMANLAR TƏRƏFİNDƏN TƏSDİQLƏNƏN HƏQİQƏT ... 40
NİYƏ ÇOXARVADLILIĞI SEVMİRLƏR (NİFRƏT EDİRLƏR)? ... 41
ÇOXARVADLILIĞI KİM QADAĞAN EDİR? ... 43
ÇOXARVADLILIQ MƏSƏLƏSİNƏ, NİYƏ HÜCUMLAR OLUNUR? ... 47
ÇOXARVADLILIQ ƏTRAFINDA, MÜASİR MİFLƏR ... 48
ÇOXARVADLILIĞIN ƏVƏZİNİ TAPMAQ LAZIMDIR, BƏS O NƏDİR? ... 58
BU PROBLEMLƏRƏ DÜŞƏN BİRİ ÜÇÜN, NƏ LAZIMDIR. HƏMÇİNİN ÇOXARVADLILIQ HAQQINDA MƏSLƏHƏTLƏR ... 59
NƏSİHƏT ... 63
RƏSULULLAH ﷺ VƏ ÇOXARVADLILIQ ... 64